

HƏSƏN MİRZƏ

75

# HANI O SƏNDƏKİ EL, DƏRƏLƏYƏZ?!

-7985-

İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2002

BBK.H
M66

**Redaktor:** ***Xəlilov Buludxan Əziz oğlu,*** *filologiya elmləri doktoru, professor, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü*

**M 66. Həsən Mirzə.** Hanı o səndəki el, Dərələyəz?!
"Qismət" Bakı. 2002. 192 səh. (şəkilli)

*Müəllif kitabda Qərbi Azərbaycanın bir hissəsi olan, hal-hazırda isə erməni tapdağı altında qalan Dərələyəzin dərdlərini tərənnüm edir. Həm müəllifin şerlərində, həm də şairlərin, aşıqların ona yazdıqları şerlərdə Dərələyəzdə olan yer-yurd adları, orada baş vermiş tarixi hadisələr, adət-ənənələr, tanınmış şəxslər yada salınır, torpaqlarımızın zaman-zaman parçalanıb yadlara paylandığı oxuculara çatdırılır. Türk dünyasının böyük sərkərdələrindən nümunə götürmək, doğma yurdu düşmənə verməmək gənclərə tövsiyə edirilr. Kitabda Azərbaycan gözəllərinin tərnnümünə və bu kimi digər məsələlərə də yer verilir.*

M 66 $\frac{470256040}{M\text{-}085\text{-}01}$

© H.Mirzə-2002



## *ÖN SÖZ*

*Azərbaycan folklorunun, Şərq ədəbiyyatının, şəriətin gözəl bilicisi, saz-söz sənətinin xiridarı, "Leyli-Məcnun"u, "Gülüstan"–"Bostan"ı, "Şahnamə"ni, Abbası, Xəstə Qasımı, Qurbanini, Valehi, Ələsgəri, Nizami, Nəsimi və Şərqin hikmətlərini yaddaşında gəzdirən, daim Vətən dərdi ilə yaşayan, ensiklopedik məlumata, geniş dünyagörüşə malik olan, hazırcavab, qorxmaz, əyilməz, məğrur, sinədəftər, el ağsaqqalı atam İbrahim Mirzəli oğlunun əziz xatirəsinə ithaf edirəm.*

*Kitabda qədim Azərbaycan torpağı olan, füsunkar təbiəti ilə cənnəti xatırladan, hal-hazırda erməni tapdağı altında qalan Dərələyəzin dərdi tərənnüm edilir. Şairlər müəllifə yazdıqları şerlərində onun dərdinə, vətən həsrətinə şərik olur. Həsən Mirzə və Dərələyəz haqqında bildiklərini oxuculara çatdırırlar.*

*Həm müəllifin şerlərində, həm də onunla deyişən və ona şer həsr edən şairlərin misralarında Dərələyəzdə olan kəndlər, tarixi abidələr–qalalar, pirlər, karvansaralar, vənglər, kilsələr, qoçdaşlı qəbirlər, həmçinin süsənli-sünbüllü yaylaqlar, laləli-nərgizli yurdlar, güllü-çiçəkli meşələr, əzəmətli dağlar, yalçın qayalar, meyvəli bağlar, şır-şır bulaqlar yada salınır. Bu yerin adət-ənənələrindən,*

*buradaki insanların dostluğa sədaqətindən, qorxmaz, yenilməz olmalarından söz açılır. Dərələyəzin aşıqlar məskəni olduğu, buradakı insanların saza, sözə böyük qiymət verdiyi oxuculara çatdırılır.*

*Dəfələrlə qaçqın düşən, pərən-pərən olan Dərələyəz eli ilə ermənilər arasında gedən vuruşmalardan, buranın cəngavər oğullarından, el ağsaqqallarından bəzi məqamlar yada salınır. Zaman-zaman böyük Azərbaycan torpaqlarının şaqqalandığı, parçalandığı, yadlara paylandığı oxucuya çatdırılır. Türk dünyasının böyük sərkərdələrindən, tarixi şəxsiyyətlərindən nümunə götürmək, ana torpağı göz bəbəyi kimi qorumaq gənclərə tövsiyə edilir. Əldən gedən torpaqların geri qaytarılması arzu olunur.*

*Kitabda azərbaycanlıların daxilən gözəl olduğu kimi, xaricən də gözəl olduğu, Azərbaycan oğul və qızlarının anadan gələndə şair və müğənni doğulduğu göstərilir. Nəhayət, kitabın axırında bəzi şerlərin yaranma tarixi haqqında qısa məlumat verilir..*

***Müəllif***





## REDAKTORDAN

### VƏTƏNƏ, TORPAĞA, İNSANA VƏ GÖZƏLLİYƏ BAĞLI POETİK DÜŞÜNCƏ

*Dünyanın əşrəfi olan insan valideynləri ilə yanaşı, həm də yurd-yuvasının, el-obasının övladıdır. İnsan bütün keyfiyyətlərini, qurub-yaratmaq istəyini, sevib-sevilmək hisslərini gizlətməyən bir məxluqdur. Bu məxluqa məxsus olan keyfiyyətlər o zaman onu böyük edir ki, insan geniş mənada Vətənə, bəşəriyyətə mənsubluğu öz əməli ilə qazansın. Belə olduqda insan öz Vətəninə mənsub olmaqla insanlığa da mənsub olur. Məşhur ədəbiyyatşünas-tənqidçilərdən biri yazır: «Öz vətəninə mənsub olmayan şəxs insanlığa da mənsub deyildir». Bu mənada Qərbi Azərbaycanın qədim torpağı olan Dərələyəzin dilçi-türkoloqu, professoru, millət vəkili, şair oğlu Həsən Mirzə öz vətəninə və insanlığa mənsub olan qələm əhlidir. Vətəninin dərdi, elinin-yurdunun başına gələnlər Həsən Mirzə misralarında dillənir.*

***Ey ana torpağım, ey can diyarım,***
***Hanı o səndəki el, Dərələyəz!***
***Ey cənnət məkanım, ey dağ vüqarım,***
***Pərən-pərən olub el, Dərələyəz!***
***Yaram göz-göz olub bil, Dərələyəz!***

*İnsanlığa və vətənə mənsub olanların ruhunda, cövhərində, qanında və canında od, hava, torpaq, su müqəddəsliyi var. Ümumiyyətlə, insan övladı dünyanı yaradan dörd ünsürün — suyun, torpağın, odun, havanın sehrindən çıxa bilmir. Bəlkə buna görədir ki, insanın dünyaya gəlişi ana bətnindən ayrılmaqla başlayır və nə vaxtsa ana yurdun — ana torpağın qoynuna girməklə qurtarır. İnsan torpağa qaynayıb-qarışmaqla sanki əslinə, əzəlinə, ilkinliyinə — dünyanı yaradan müqəddəs ünsürlərdən biri olan torpağa qayıdır. Əbdi bəy Şirazi yazır:*

**Sən bil ki, bir ovuc su və torpaqsan,**
**Yenə öz əslinə qayıdacaqsan.**

*Mifik təsəvvürlərə görə dünya bina olarkən yalnız sudan ibarət olub. Sonralar suyun çəkilməsi nəticəsində quru torpaq və bunun üzərində yaşayan canlı varlıqlar yaranıb. Hər halda svilizasiyanın sonrakı mərhələlərində od, hava, torpaq, su adlı varlıqlar bir-birini tamamlamaqla yanaşı, təbiətə də gözəllik bəxş edibdir. Ona görə də insan boz qırları, quru, uczus-bucaqsız səhraları deyil, odu, suyu, havası, torpağı, gülü, çiçəyi, ağacı olan canlı təbiəti sevir. Bu cür canlı təbiətin qoynunda olanda, havasını udanda, suyunu içəndə, Allah verən nemətlərini dadanda insan daha azad, səmimi və müstəqil olur. Bir sözlə, insan yaşadığı, boya-başa çatdığı torpağın təbiətini illər boyu özünə hopdurur və beləliklə, təbiətin canlı-*





*şüurlu varisinə çevrilir. Öz doğma yurduna vurğunluq Həsən Mirzənin əsil insan-vətəndaş olmasından, özünəməxsusluğundan irəli gəlir. Bu cür özünəməxsusluğun tələbi ilə minilliklərin genetik yaddaşından axıb gələn, irsən keçmiş vətənpərvərlik hissləri Həsən Mirzənin lirik mənində dinamikləşir və həzin bir şəkildə dil açır.*

**Sənsiz qışa dönüb baharım, yazım,**
**Susubdur kamanım, dillənmir sazım,**
**Həsənəm, bu dərdi de, necə yazım?**
**Didərgin olubdu el, Dərələyəz!**
**Göz yaşım olubdu sel, Dərələyəz!**

*Hələ lap əski çağlarda qədim insanlar yaşadıqları ərazinin dağına, daşına, suyuna, torpağına müqəddəs bir varlıq kimi yanaşmışlar. Bəlkə də bu müqəddəsliklə bağlıdır ki, yaradıcı insanların — şairlərin mövzu dairəsində vətən, yurd anlayışı həmişə aparıcı rol oynayır. Xüsusilə, «dağlar» mövzusu Azərbaycan poeziyasında tarixi genetik ənənəsi olan bir mövzudur. Həsən Mirzə də bu ənənəyə sadiq qalaraq «dağlar» mövzusunda öz poetik düşüncə və hisslərini gəraylı üstündə ürəklərə yol tapan bir şəkildə dilləndirir.*

**Uşaqlığım — ən xoş çağım,**
**Səndə keçib, səndə dağlar.**
**Ətəyində bağça, bağım,**
**Qalıb məndən gendə, dağlar.**

***Hanı o oğuz ellərin,***
***Nədən solubdu güllərin,***
***Niyə lal olub dillərin,***
***Susma, dillən sən də, dağlar.***

*Həsən Mirzənin hər bir şerinin, o cümlədən «Dağ lar» şerinin də yaranma tarixi vardır. 21 mart 1999-cu ildə Həsən Mirzə Naxçıvandan Bakıya gələn təyyarədən Dərələyəzə və Göyçə gölünə baxanda hisslərini cilovlaya bilməmiş və səmada vətən həsrətli «Dağlar» şerini qələmə almışdır. Sadə və aydın bir dildə yazılmış bu gəraylılar vətən həsrətli oxucuların qəlbini dağlayır.*

***Şeh çəməndə izim düşə,***
***Palıd közdə kabab bişə,***
***Lilpar dolçan işə düşə,***
***Məclis quram səndə, dağlar.***

***Lalələr örpək şalındır,***
***Çiçəklər xalça-xalındır,***
***Həsən Mirzə qonağındır,***
***De, qalsınmı səndə dağlar?***

*Həsən Mirzə yaradıcılığının əsas obyekti İNSAN-dır. Yaxşı - pis, düz - əyri, gözəl - çirkin, xeyirxah - bədxah, yaltaq, ikiüzlü, mərd - namərd, qaçqın - köçkün, daha nə bilim nə cür insan...*





*Həsən Mirzənin lirik «mən»ində bu insanların hər biri öz adı ilə çağrılır. Hər birinə öz adına görə qiymət verilir. Əslində bu Həsən Mirzəyevin xarakterinin, yaradıcılığının xoşbəxtliyidir. Almanlarda belə bir misal var: «İnsanın xoşbəxtliyi onun xarakterindədir». Müəllif tarixi yerlərimizi, yaradıcı insanları yerində, məqamında xatırlayır. Məsələn, Borçalı, Dərbənd, İrəvan, Təbriz dərdlərini — vətən həsrətini, yurd yanğısını yazmaq üçün o, Zəlim xana, Sücaətə, Səadətə, Alqayıda, Bəhmənə müraciət edir.*

*Vətən torpağının zaman-zaman parçalandığını, doğrandığını, yadlara paylandığını, özgələrin tapdağı altında qaldığını yada salır, vətən övladının tez bir zamanda ayağa qalxıb doğma yurdu azad etməsini istəyir.*

***Düşmən əlindədir müqəddəs yerim,***
***Ləlim, cəvahirim, abidəm, pirim,***
***Qoy ayağa qalxsın igidim, ərim,***
***Bəlkə bu şad xəbər silə dərdimi.***

***Babamın o yerdə izi qalıbdır,***
***Nənəmin nəğməli sözü qalıbdır,***
***Türk-oğuz yurdunun gözü qalıbdır,***
***Töksəm də aparmaz Nilə dərdimi.***

***Borçalı doğranıb, Dərbənd doğranıb,***
***İrəvan doğranıb, Təbriz doğranıb,***
***Torpağımın çoxu yada paylanıb,***
***Mən necə unudum belə dərdimi?***

***Vətən həsrətimi yazsın Zəlimxan,***
***Sücaət, Səadət, Alqayıt, Bəhman,***
***Ərlər qılınc çəksin yetişib zaman,***
***Aqillər gətirsin dilə dərdimi.***

*Bununla da o, çağdaş poeziyamızın qəm yüklü şair lərinin vətən, yurd həsrətli düşüncələrinin sirdaşına çev rilir, doğma dərdlərini misralar vasitəsilə yüngülləş dirir. Hiss edirsən ki, Həsən Mirzə ilin bütün fəsillərini – yazı, yayı, payızı, qışı olduğu kimi qəbul edir, hər fəslin özəlliklərini, gözəlliklərini, təbii qanunlarını və qanunauyğunluqlarını duyur, fırlanan dünyanın gərdişində onun acısını da, şirinini də, istisini də, soyuğunu da görməyi bacarır. Nəticədə onun poetik hissləri ilin dörd fəsilinə — yaza, yaya, payıza, qışa və dünyanın dörd cəhətinə — Şərqə, Qərbə, Cənuba, Şimala səyahət edir. Poetik axtarışın dərdi, qəmi, acısı onu yorduqda həyatda olduğu kimi poeziyasında da xoş günlər axtarır. Nəticədə bu, Həsən Mirzə poeziyasının nikbin notları kimi diqqəti cəlb edir.*





***Ulduz xanım, daha çalma «Dilqəmi»,***
***«Sarıtel» çal, bir az unudaq qəmi,***
***Həsən deyər gəlsin xoş günlər dəmi,***
***Darayım sazında telə dərdimi.***

*Həsən Mirzə yaradıcılığında tarixi-etnik torpaqlarımızdan kütləvi surətdə deportasiya olunmuş soydaşlarımızın ağır məhrumiyyətlərini, milli faciələrini və məşəqqətlərini poetik şəkildə ifadə etməyi bacarır. Poeziya dili ilə tarixi-etnik torpaqlarımızdan didərgin salınmış, kütləvi təqiblərə, qırğınlara məruz qalmış, yaşayış məskənləri dağıdılmış, bütün hüquqları pozulmuş yüz minlərlə azərbaycanlının taleyini konkret olaraq Dərələyəzin ərazisi fonunda hər bir Azərbaycan vətəndaşının təəssüb dolu hissinə çevirir.*

***Soğanlı, Vers dağı, Təkədonduran,***
***Ətəyi bənövşə, başı çən, duman,***
***Cənnət Dərələyəz, o gözəl məkan,***
***Droya, Seroya, Armoya qalmaz.***

***Süsənli-sünbüllü yaşıl yaylaqlar,***
***Lilparlı, yarpızlı şır-şır bulaqlar,***
***Dədəm Qorqud gəzən qədim oylaqlar,***
***Həsən deyər heç vaxt Maşoya qalmaz,***
***Vətən Dərələyəz Xaçoya qalmaz.***

*O, erməni şovinistlərinin soydaşlarımıza qarşı törətdikləri tarixi cinayətə kəskin şəkildə etirazını bildirir, xalqı tarixi şəxsiyyətlərimizin göstərdikləri hünərlərdən güc almağa çağırır. Təcavüzkarlıq siyasəti aparan erməni mafiyası və onların dəstəyi ilə Azərbaycan xalqına qarşı törədilmiş faciələrin, vəhşiliklərin tez-gec ifşa olunacağına inanır. Bununla da oxucuya ruh yüksəkliyi, mənəvi birlik, düşmənə qarşı mübarizlik əhval-ruhiyyəsini aşılayır.*

***Aç tarixi keçmişinə nəzər sal,***
***Göy türkləri, Atillanı yada sal,***
***Teymurləngdən, Bayaziddən qılınc al,***
***Döyüş, vuruş, yurdun Açoya qalmaz.***

***Vətən yada qalsa Tomris qan ağlar,***
***Babək daş məzarda od tutub yanar,***
***Şah Xətaim bil ki, Allahı danar,***
***Hünər göstər, yuvan Qıncoya qalmaz.***

***Atatürkün qeyrətini bilir hay,***
***Səttərxanın cürətini bilir, hay.***
***Heydərimin qüdrətini bilir, hay,***
***Qorxma, ərlər yurdu Laçoya qalmaz.***

*Həsən Mirzə poeziyasında bədbin və nikbin notlar bir-birini tamamlayan eyni yolun müxtəlif qütbləridir.*





*Mənfi müsbət kimi, ağ qara kimi, təpə düz kimi, düz-əyri kimi təzadlıdır. Onun poeziyasının daxili enerjisi, stimul mənbəyi tükənməzdir. Daxili dünyası işıqlı, parlaq, günəşli və hərarətlidir. Bu hərarətin, odun istisi onun özünü də, oxucunu da poeziya yolunun qəmli qütbündən sevgi, istək dolu sehrkar səmtinə aparır. Gözəllik, sevgi, həyat eşqi dolu olan bu səmtdə də Həsən Mirzənin misraları oxucunun qəlbini oxşayır. Hisslərin, duyğuların müqəddəsliyi, sevginin tükənməzliyi, ruhun və cövhərin cavanlığı adamı heyran edir.*

***Ədası da gözəl, özü də gözəl,***
***Söhbəti də gözəl, sözü də gözəl,***
***Qəmzəsi də gözəl, nazı da gözəl,***
***O nazlı dilbəri tapın gətirin!***

***Kim qəlbinə dəydi o şux gözəlin?***
***Hara uçub getdi o şux nazənin?***
***Şair təbiətli Həsən Mirzənin***
***İlham pərisini tapın gətirin!***

*Həsən Mirzə yaradıcılığında sevgi dolu hisslərin yaşını müəyyən etmək çətindir. Daha doğrusu, qəribə burasdır ki, Həsən Mirzənin poetik hisslərinin istisi, şöləsi indi daha güclüdür, nəinki iyirmi, otuz, hətta qırx il bundan əvvəl. Buna qəribəlikdən daha çox onun ilham pərisinin coşa gəldiyi anlarının səadəti kimi baxmaq,*

*eşqinin ümman, qəlbinin gənc olması kimi yanaşmaq lazımdır. Bu müstəvidən yanaşdıqda görürük ki, duz qırx iki il bundan əvvəl yazılmış «Gül verdi sənə» şeri ilə müqayisədə 2000-ci il və 2001-ci illərdə ərsəyə gəlmiş «Bu gözələ», «Tapın gətirin», «Beləsinə» şerləri lirik çeşidlərinə, hisslərin, duyğuların rəngarəngliyinə görə daha önəmlidir. Müqayisələrə diqqət yetirək:*

***Gözündən güləndə, səni süzəndə,***
***Qəlbinin telini əzib, üzəndə,***
***Miz üstünə alma, nar düzüləndə***
***Gözəllər gözəli dil verdi sənə***
***O Şirvan gözəli gül verdi sənə.***

***/1959-cu il/***

***Zümzüməsi layla çalır,***
***Baxışıyla canlar alır,***
***Həsəni də oda salır***
***Nə deyəsən bu gözələ?***

***/2001-ci il/***

***Ağ bədən, ağ buxaq, incəbellidir,***
***Qaraqaş, qaragöz, siyahtellidir,***
***Şux yeriş, gülərüz, şirindillidir,***
***O ağ göyərçini tapın, gətirin!***





***Göz oxşayır tovuz kimi naxışı,***
***Canlar alır oğrun-oğrun baxışı,***
***Rəssamı ram edir ceyran duruşu,***
***O Ahu-ceyranı tapın, gətirin!***

***/2000-ci il/***

*Həsən Mirzənin lirikasında mənanın enerjisi tükənməzdir. Elə buna görə də bu enerjidən gözələ və gözəlliyə, torpağa və vətənə pay çatır. Və torpağın müqəddəsliyi coğrafi kordinantlar sistemində daha gözəl görünür. Coğrafi kordinantlar vasitəsilə deyişmələrdə, misralarda, sətirlərdə yer-yurd adlarının çəkilməsi poetik şəkildə Azərbaycanın xəritəsini yaradır. Müqəddəs yerlərin — Borçalının, Dərbəndin, İrəvanın, Təbrizin fonunda Vətənin ərazisi hüdudları Azərbaycanın qədim torpağı olan Dərələyəzin sirlərinə söykənir. Bu yerdə aşığa, saza, sözə böyük qiymət verildiyini, ona xüsusi diqqət yetirildiyini, erməni şovinistləri tərəfindən Dərələyəzdə törədilən qanlı cinayətlər yada salınır.*

***Yetişib çox aşıq Horsda, Sallıda,***
***Herherdə, Ərgəzdə, Zeytədə, Culda,***
***Çeşidlər vurula, xalça, xalıda,***
***Üstdən asıla saz, Dərələyəzdə.***

**Baş kəsib, döş kəsib burda qəsbkar,**
**Andranik adlı tayqulaq, murdar,**
**Süngüyə çəkilib körpə uşaqlar,**
**Gəl də bu dərdə döz, Dərələyəzdə!**

*Misralarda ipə-sapa düzülmüş yer-yurd adları oxucuya Vətənin əzəli torpaqları barəsində məlumat verir. Deməli, Həsən Mirzənin şerləri həm də Vətən barəsində informasiya daşıyıcısı kimi heç də az rol oynamır. Çox güman ki, Həsən Mirzə şerlərinin bu cəhəti onun müəllimliyi ilə bağlıdır. O, bir müəllim kimi müqəddəs torpağın ərazilərini də gələcək nəsillərə şerin dilində çatdırmağı bacarır. Buna da xoş məramlı missiyanın uğurlu nəticəsi prizmasından baxmaq olar. Burada Məhəmməd Peyğəmbərin fikri yada düşür: «Ən böyük sədəqə biliyi bilməyənlər arasında yaymaqdır».*

*Həsən Mirzə yaradıcılığında Azərbaycanın dərdləri dil açır. O taylı-bu taylı Azərbaycanın taleyi vərəqlənir. Təbriz Şimali və Cənubi Azərbaycanın milli, tarixi birliyini yaradan şəhər kimi gələcək nəsillərin də yaddaşına həkk olunur. Bu mənada Həsən Mirzə Təbrizlə dərdini bölür, qəlbindəki niskili silir, öz qardaşı və doğması kimi onun görüşünə çıxır. 26 dekabr 1998-ci ildə Azərbaycandan Təbrizə gedən Milli Məclis deputatları ilə Təbriz şairlərinin görüşündə öz hisslərini belə ifadə edir.*





**Baxdım, heyran oldum Ellər gölünə,**
**Qar düşmüşdü çiçəyinə, gülünə,**
**Şəhriyarın doğma, şirin dilinə,**
**Qurbanam, qurbanam, qurbanam, Təbriz!**
**Səttarxan elinə qurbanam, Təbriz!**

**O taylı-bu taylı boyların birdir,**
**Güneyli-qüzeyli soyların birdir,**
**Dərd-qəmin, ələmin, toyların birdir,**
**Qardaşıq, qardaşı unutma, Təbriz!**
**Həsən Mirzəni də unutma, Təbriz!**

7985

*Həsən Mirzə yaradıcılığının uğurlu cəhətlərindən biri də onun şifahi xalq ədəbiyyatını — aşıq ədəbiyyatını dərindən bilməsi, folklor nümunələrini, xalq dastanlarını ətraflı təhlil etmək bacarığına qadir olmasıdır. Şübhəsiz, bu duyğuların mənəvi yükü şerlərin, misraların, bəndlərin bələdçisinə çevrilir. Saz havalarının yaranma tarixini, onun bütün sirlərini duymaq qabiliyyəti imkan verir ki, Həsən Mirzə düzüb-qoşduğu şerlərin məzmununda Xəstə Qasımın, Qurbaninin, Tufarqanlı Abbasın, Alının, Valehin, Dədə Ələsgərin, Aşıq Şəmşirin, Bozalqanlı Hüseynin, Dilqəmin, Saraclı Hüseynin, Mikayıl Azaflının, Əmrahın, Kamandarın ruhunu gəzdirə bilsin. Və o, buna müvəffəqiyyətlə nail olur.*

Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

***Bu yerdə çox aşıq olubdu qonaq,***
***Abbasdan, Valehdən tutubdu soraq,***
***Hamı sinədəftər, aç varaq-varaq,***
***Sevilir söhbət, saz Dərələyəzdə.***

***Ağ aşıqla Alı başdan, binadan,***
***Saz tutub, bu yerdə ediblər dövran,***
***Ələsgər, Saraclı, o Növrəs İman,***
***Hikmət açıbdı yüz Dərələyəzdə.***

*Xüsusilə, Həsən Mirzənin Aşıq Mehdi, şairə Buta ilə deyişmələrində lirik düşüncənin soy-kökünə, adət-ənənəyə, xalqımızın tarixinə, milli həyat və düşüncə tərzinə dərindən bağlılığını görməmək olmur. O, şerlərində yeni-yeni ifadə formalarından istifadə etməyi bacarır. Mənə elə gəlir ki, bu da istər-istəməz oxucunu heyrətdə qoymaya bilməz.*

***Qoşmaları yana-yana yazırsan,***
***Sözlərini qatıb qana yazırsan,***
***Hikmətləri ruha-cana yazırsan,***
***Şerimizə çələng hörürsən, Buta!***

*O, doğulub boya başa çatdığı Dərələyəzin cənnət diyarı, uzunömürlülər diyarı olduğunu oxucularına çatdırır.*

*Həsən Mirzənin oxunaqlı dili, aydın məntiqi də diqqəti cəlb edir. Təşbehləri, bənzətmələri yerli-yerindədir, misraları axıcıdır. Qoşmalarında bir dənə də olsun artıq sözə, təkrara rast gəlmirsən, işlətdiyi sözlərin hamısı yeni-yeni mənalar ifadə edir.*





***Süsənli, sünbüllü uca dağları,***
***Laləli, nərgizli bağça, bağları,***
***Həmdəmlə gəzəsən bahar çağları,***
***Edəsən ömrü yüz Dərələyəzdə.***

***Laçın qayalarda qartal qıy vurur,***
***Şişbuynuz təkələr nizama durur,***
***Xınalı kəkliyə nərgiz göz vurur,***
***Gül-gülə edir naz Dərələyəzdə.***

*Bu bəndin özündə «şişbuynuz təkələrin nizama durması», «xınalı kəkliyin nərgizə göz vurması», «gülün gülə naz etməsi» ifadələri yeni olduğu qədər də səlis və aydındır.*

*Həsən Mirzənin bu kitabında maraqlı cəhətlərdən biri də şairlərin ona müraciətlə yazdığı şerlərdir. Ona olan bu müraciətlər onun geniş dünyagörüşə malik olması, əsil ağsaqqallığı, xalqımız içərisində torpağının, yurdunun vurğunu kimi tanınması, el-oba içərisində böyük hörmət qazanması, ümid yeri olması, müdrikliyi, əsil vətənpərvərliyi və s. bu kimi bir çox məsələlərlə bağlıdır. Lakin biz bu qəbildən olan şerlərin təhlilinə yer ayırmadıq. Ona görə ki, Həsən Mirzənin özünəməxsus təbiəti, belə şerlərin təhlilinə yol vermir. Açığını deyim ki, o, müdaxilə edərək mənim bu cür şerləri təhlil etməyimə imkan vermədi. O,*

*mənə dedi ki, bunu oxucuların öz ixtiyarına buraxmaq daha yaxşıdır.*

*Qısaca şəkildə onu deyim ki, Həsən Mirzəyə ithaf olunaraq müraciətlə yazılan «Dərdimi», «Ay Həsən Mirzə», «Yaradıb»,«Həsən Mirzəyev», «Vurğunuyam», «Həsən məllim», «Ay alim Həsən, ay şair Həsən», «Bağışlayıb», «Görüm», «Küsmüşəm», «Ay Həsən qağa», «Var», «Gəlmişəm», «Həsən məllim», «Ay Həsən», «Vətənim», «Olma», «Gəzəydik qoşa», «Mən», «Ay dədə Həsən», «Nə köçhaköçdür», «Elin ağsaqqalı, ay Həsən məllim», «Ay Həsən lələ», «Dərələyəz» və s. şerlər bədiiliyi qədər də səmimiliyi, doğmalığı ilə seçilir. Bu şerlər oxucuya, insana doğma münasibət, dosta sədaqət, dərdə həmdərd olmaq keyfiyyətlərini aşılayır.*

*Onu da qeyd edim ki, Həsən Mirzəyə müraciətlə yazılan şerlər içərisində poema, müxəmməs, gəraylı və qoşmalar xüsusi yer tutur. Bunun başlıca səbəbi həmin müraciətləri və ithafları yazanların aşıq şerinin şəkillərini dərindən bilmələri, xalq ruhuna yaxınlıqları, həm də dərd əhli olmaları ilə bağlıdır. Onların yaradıcılığında xalq ruhuna yaxınlıq bütün digər keyfiyyətləri üstələyir. Onlar bu məziyyəti Həsən Mirzədə gördükləri üçün ürəklərinin səsini poetik bir şəkildə, ruhumuza oxşar bir formada verə bilmişlər. Bunu Zəlimxan Yaqubun, Alqayıdın, Səadət Butanın, Aşıq Mehdinin, Zəki İslamın, Alim Dərələyəzlinin, Firuzə Məmmədlinin, Əli Qurban Dastançının, Aşıq Ulduzun, Əvəz Lələdağın, Avtandil Ağbabanın, Salman Qazi-*





*nin, Şəkil Dərələyəzlinin, Həsənxan Manafovun, Mərziyə Kəlbəcərlinin, Eldar Sadığın, Əli Əkbər Dərələyəzlinin, Bilman Qüdrətin, Rəhman Mustafayevin, Mənsurə Dərələyəzlinin, Əli Qəmlinin, Fəridə Ləmanın Həsən Mirzəyə müraciətlə yazdıqları şerlərdə aydın notları ilə görmək olur. Mənə elə gəlir ki, bu qəbildən olan şerləri oxuyan hər kəs bir ümid və inam dolu mənəvi birliyin qidasını qismən də olsa əldə edir. Onun enerjisi ilə mənəvi cəhətdən rahatlıq tapır, xoş ovqatın və əhval-ruhiyyənin içərisinə düşür.*

*Həsən Mirzənin oxucuların ixtiyarına verdiyi bu kitabda atasının 3 şeri də işıq üzü görür. Bu da oxucular tərəfindən qəribə qəbul olunmamalıdır. Çünki həmin şerlərin ikisi birbaşa Həsən Mirzəyə ünvanlanmışdır (üçüncüsündə də onun adı çəkilmişdir). 1938-ci ildə Həsən Mirzənin atası İbrahim Mirzəlioğlu Sibirdə sürgündə olarkən həmin şerləri məktubla oğluna göndərmişdir. Həsən Mirzənin dediklərinə görə o, bu tarixi həqiqətin kitabda verilməsini öz övladlıq borcu hesab edir.*

*Həsən Mirzənin gələcək yaradıcılığına uğurlar arzulamaqla bərabər, onu da qeyd etməyi borc bilirəm ki, bu kitab dərdli, qəmli, köçkün, qaçqın insanların— oxucuların dərdinə məlhəm olmaqla yanaşı, Vətəni sevənlərə özünəməxsus axtarış tərzi olan düşüncə «mən»inin yeni töhvəsidir.*

**BULUDXAN XƏLİLOV**
**Filologiya elmləri doktoru, ADPU-nun professoru,**
**Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü.**
*14 avqust 2001*

# Qoşma, gəraylı, müxəmməs və deyişmələr



## DƏRƏLƏYƏZ

Ey ana torpağım, ey can diyarım,
Hanı o səndəki el, Dərələyəz?!
Ey cənnət məkanım, ey dağ vüqarım,
Pərən-pərən olub el, Dərələyəz!
Yaram göz-göz olub bil, Dərələyəz!

Düşmən əlindəsən gələ bilmirəm,
Axan göz yaşını silə bilmirəm,
Dərd məni öldürür, ölə bilmirəm,
Aylarım olubdu il, Dərələyəz!
Sənsiz lal olubdu dil, Dərələyəz!

Ömür sarayımı sökür həsrətin,
Gözümdən qanlı yaş tökür həsrətin,
Qəddi-qamətimi bükür həsrətin.
Həsrətdən ağarıb tel, Dərələyəz!
Dərdindən yay olub bel, Dərələyəz!

Sənsiz qışa dönüb baharım, yazım,
Susubdur kamanım, dillənmir sazım,
Həsənəm, bu dərdi, — de, necə yazım?
Didərgin olubdu el, Dərələyəz!
Göz yaşım olubdu sel, Dərələyəz!

*Bakı, 17 fevral 2001*

## DƏRDİMİ

Aşıq Ulduz çox da dərdliyəm demə,
Söyləsəm qurtarmaz ilə dərdimi.
Əldən gedib yurdum, yuvam, məskənim,
Yükləsəm çəkəmməz filə dərdimi.

Babamın o yerdə izi qalıbdır,
Nənəmin nəğməli sözü qalıbdır,
Türk-oğuz yurdunun gözü qalıbdır,
Töksəm də aparmaz Nilə dərdimi.

Parçalanıb, şaqqalanıb vətənim,
Tapdalanıb, hey talanıb vətənim,
Tonqallara çox qalanıb vətənim,
Töksəm dərya olar gölə dərdimi.

Borçalı doğranıb, Dərbənd doğranıb,
İrəvan doğranıb, Təbriz doğranıb,
Torpağımın çoxu yada paylanıb,
Mən necə unudum belə dərdimi?

Düşmən əlindədir müqəddəs yerim
Ləlim, cəvahirim, abidəm, pirim,
Qoy ayağa qalxsın igidim, ərim,
Bəlkə, bu şad xəbər silə dərdimi.





Zorla köçürüblər Oğuz elimi,
Bu qəm yükü yaman büküb belimi,
Dilim-dilim doğrayıblar dilimi,
Aşıqlar söyləsin elə dərdimi.

Vətən həsrətimi yazsın Zəlimxan,
Sücaət, Səadət, Alqayıt, Bəhman,
Ərlər qılınc çəksin yetişib zaman,
Aqillər gətirsin dilə dərdimi.

Qalxın, Vətən oğlu, qalxın ayağa,
Doğma yurda sahib çıxmasın dığa,
Qovun nankor hayı, qovun uzağa,
Arpa çayda verim selə dərdimi.

Ulduz xanım, daha çalma «Dilqəmi»,
«Sarıtel» çal, bir az unudaq qəmi,
Həsən deyər gəlsin xoş günlər dəmi,
Darayım sazında telə dərdimi.

*Altağac, 15 iyun 1998*

## DAĞLAR

Uşaqlığım — ən xoş çağım,
Səndə keçib, səndə dağlar.
Ətəyində bağça, bağım,
Qalıb məndən gendə, dağlar.

Hanı o oğuz ellərin,
Nədən solubdu güllərin,
Niyə lal olub dillərin,
Susma dillən sən də, dağlar.

Yurdunda elin görünmür,
Ocaqların yanıb sönmür,
Yan tütəyin səsi gəlmir,
Döz bu dərdə sən də, dağlar.

Göyçə göldən duman enə,
Göytəpədə çən sürünə,
Yağışdan sonra görünə,
Göy qurşağı səndə, dağlar.





Quzqulağı duzla ovam,
Qar altından yarpız yığam,
Dost-tanışla məclis quram,
Yatam qalam səndə, dağlar.

Şeh çəməndə izim düşə,
Palıd közdə kabab bişə,
Lilpar dolçan işə düşə,
Məclis quram səndə, dağlar.

Lalələr örpək şalındır,
Çiçəklər xalça-xalındır,
Həsən Mirzə qonağındır,
De qalsınmı səndə, dağlar?

*Naxçıvan—Bakı təyyarəsi*
*21 mart 1999*



## DƏRƏLƏYƏZDƏ
***deyişmə***

*Aşıq Mehdi*

Atam Muradtəpə, anam Bolbulaq,
Yaraşır deməyə söz Dərələzdə.
Yayın istisində xəstə istəsə,
Taparsan çınqıldan buz Dərələzdə.

*Həsən Mirzə*

*A Mehdi! Bilirsən şair deyiləm,*
*Sənin tək deyəm söz Dərələyəzdə.*
*Yaddan çıxanları yada salıram,*
*Sən bir də dolan, gəz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Soyuqbulaq yaylaqların gözüdü,
Soğanlı dağ çəmənidi, düzüdü,
Versin dağı aşıqların sözüdü,
Baxmaqla doymayır göz Dərələzdə.





*Həsən Mirzə*

*Hasardır Zəngəzur, Kəlbəcər, Göyçə,*
*Naxçıvan, Şərurdüz, Vedi, Əyricə,*
*Açardı Ağmanqan, Ağrı, Əlincə.*
*Bunları şerə düz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Dağ döşündə lalə üstə qana bax,
Qabaxlıda pətəkdəki şana bax,
Qovuşuqda sən şöhrətə, şana bax,
Ömr edir, qocalar yüz Dərələzdə.

*Həsən Mirzə*

*Qəndbölən Nəbidən qalıb yadigar,*
*Dədəli körpüsün söküb ruzigar,*
*Xalaclar yurdunda lalə füsunkar,*
*Əl uzat, birin üz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Qalaser kənd qonşularla yarışır,
Canı kəndi ulduzlara qarışır,
Ələyəzdə dost-dostuna sarışır,
Dostluğa mehriban söz Dərələzdə.

*Həsən Mirzə*

*Qayalardan gəlir Nəbinin səsi,*
*Calal bəylə gedən cəngi, nərəsi,*
*Aşıq Qəhrəmanın zil zənguləsi,*
*Söylənir payız, yaz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Gülüdüzdü bu yerlərin əsası,
Qoymaz yağı düşmənlərdə qisası,
Gədikvəngdir Arpaçayın binası,
Çiçəyi solmayan yaz Dərələzdə.

*Həsən Mirzə*

*Yetişib çox aşıq Horsda, Sallıda,*
*Herherdə, Ərgəzdə, Zeytədə, Culda,*
*Çeşidlər vurula, xalça xalıda,*
*Üstdən asıla saz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Danzik, Qozulcada gözüm qalıbdı,
Ardaraz kəndində sözüm qalıbdı,
Dərmədim bağımda üzüm qalıbdı,
Qoyma, yadlar dərsin üz Dərələzdə.





*Həsən Mirzə*

*Salsalın qalası məğrur, vüqarlı,*
*Qoçdaşlı qəbirlər sinəsi dağlı,*
*Alban kilsələri sirli-soraqlı,*
*Salıb tarixə iz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Horsun yaylağıdı Muradtəpəsi,
Könlüm istər Arpa çaydan öpəsi,
Təndirin lavaşı, cəviz ləpəsi,
Gələcək süfrəyə tez Dərələzdə.

*Həsən Mirzə*

*Şah İsmayıl burda qılınc çalıbdı,*
*Teymurləng Keşkənddə məskən salıbdı,*
*Yolda Karvansara şahdan qalıbdı,*
*Qaldımı bir oğuz Dərələyəzdə?*

*Aşıq Mehdi*

Qaraqaya arıların pətəyi,
Aynəzirdi o dağların ətəyi,
İlanlıdı çobanların tütəyi,
Çağırır sürünü yaz Dərələzdə.

*Həsən Mirzə*

*Bu yerdə çox aşıq olubdu qonaq,*
*Abbasdan, Valehdən tutubdu soraq,*
*Hamı sinədəftər aç varaq-varaq,*
*Sevilir söhbət, saz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Arpadan, Qoytuldan çıxsan Başkəndə,
Almalı, Məlişkə, Çanaxçı kəndə,
Qaravəng, Ortakənd, Yelpin, Keşkəndə,
Əyyamdan taparsan iz Dərələzdə.

*Həsən Mirzə*

*Ağaşıqla Alı başdan binadan,*
*Saz tutub, bu yerdə ediblər dövran,*
*Ələsgər, Saraclı, o Növrəs İman,*
*Hikmət açıbdı yüz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Bülbülölən o yerlərin xalı dağ,
Yanıx, Əyər dövlətidi, malı dağ,
Alxanpəyə vətənimin balı dağ,
Nemətdən süfrəyə düz Dərələzdə.





*Həsən Mirzə*

*Dağa qartal təki qonan Qoşavəng,*
*Cəvizdən elə pay verən Güneyvəng,*
*Alban yadigarı — ulu Şadıvəng,*
*Deyir gəl məni gəz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Həsənkəndlə Hostun sönmüş çıraqdı,
Karvansara, Hortun dumanlı dağdı.
Nəbilər, Horbadıq meyvəli bağdı,
Xartdıqda çəməni gəz Dərələzdə.

*Həsən Mirzə*

*Gözləri oxşayır gülü, nərgizi,*
*Həcərtək at çapır gəlini, qızı,*
*Axundun quranı, İmanın sazı,*
*Hərəsi bir ulduz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Amağu, Zeytədən, yen Cığataya,
Haxlı, Qurtqulaqda Təkəliqaya,
Mozda, Daylaqlıda neçə nər maya,
Bax, qoyub gedibdi iz Dərələzdə.

*Həsən Mirzə*

*Baş kəsib, döş kəsib burda qəsbikar,*
*Andranik adlı tayqulaq, murdar,*
*Süngüyə çəkilib körpə uşaqlar,*
*Gəl də bu dərdə döz Dərələyəzdə!*

*Aşıq Mehdi*

Kotannıdan aşsan Corrannı kəndə,
Azarsan Göydağda, dumanda, çəndə,
Bir doyunca əyləş Orucöləndə,
Aşıq, hər nə görsən yaz Dərələzdə.

*Həsən Mirzə*

*Dilində Füzuli, Sədi, Ələsgər,*
*Elin ağsaqqalı bir sinədəftər,*
*Atam İbrahimdi qoy bilsin ellər,*
*Haya çökdürüb diz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Çıraq, Tarpla, Terp, Köçbəklə yanaşı,
Leyliqaçan geyib əlvan qumaşı,
Çay kəndin füsünkar kəklikli daşı,
Bizə qismət oldu az Dərələzdə.





*Həsən Mirzə*

*Qız-gəlini qoçaq, məğrur, vüqarlı,*
*Şirin təbəssümlü, Həcər misallı,*
*Al yanaq, ağ buxaq, ağ tirmə şallı,*
*Çox gözəl gördük biz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Təkədonduranda yatmaq istəsən,
Ovçu Qəhrəmana çatmaq istəsən,
Təkəni qayada atmaq istəsən,
Qoymalısan yerə diz Dərələzdə.

*Həsən Mirzə*

*Bu yurdda çox olub dava-qalmaqal,*
*Yapona dağ çəkib qəhrəman Cəlal,*
*Hürünün aşığa verdiyi sual,*
*İtib-batmasın tez Dərələyəzdə.*

*Aşıq Mehdi*

Cul kəndi məşhurdu bağlı, meşəli,
Axta, Gomur, Kabud tər bənövşəli,
Hüseynlidə hər kəs min bir peşəli,
Çəkillər bir-birə naz Dərələzdə.

*Həsən Mirzə*

*Oğullar yetişib qorxmaz, yenilməz,*
*Xaçoya diz çökməz, haya əyilməz,*
*Dosta sədaqətli, çörək itirməz,*
*Çoxdur Qorquddan iz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Arınc, Ərgəz, Novlar tər yasəməndi,
Göyabbas, Gendərə yaşıl çəməndi,
Gümüşxana, Zirək, Səfolu kəndi,
Dərdlərə dərmandı gəz Dərələzdə.

*Həsən Mirzə*

*Süsənli, sünbüllü uca dağları,*
*Laləli, nərgizli baxça, bağları,*
*Həmdəmlə gəzəsən bahar çağları,*
*Edəsən ömrü yüz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Çivəni, Heşini gəzməmiş olma,
Sallının nərgizin üzməmiş olma,
Ağkəndin çəmənin əzməmiş olma,
Torpaqda gör nə var, yüz Dərələzdə.





*Həsən Mirzə*

*Laçın qayalarda qartal qıy vurur,*
*Şişbuynuz təkələr nizama durur,*
*Xınalı kəkliyə nərgiz göz vurur,*
*Gül-gülə edir naz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Aşıq Cəlil Aşıqların atası,
Aşıq varmı Fətullaha çatası,
Aşıq Haqverdidi nənəm butası,
Bəhmən Dərələzdə, söz Dərələzdə.

*Həsən Mirzə*

*Kaş ki, o yerləri bir də gəzəydik,*
*Nərgizin gözündən öpüb, üzəydik,*
*Nəticə toyunda yallı süzəydik,*
*İşlər olaydı düz Dərələyəzdə.*

*Aşıq Mehdi*

Herherdə doğuldum, yetirdi zaman,
Mayam Bulaqlardı, anam Zərnişan,
Qardaşım, yaxın gəl, söyləyim pünhan,
Mehdiyə şərbəti süz Dərələzdə.

*Həsən Mirzə*

*A Mehdi, vəsf elə uca dağları,*
*Türk-Oğuz yurdunu, göy yaylaqları,*
*Lilparlı, yarpızlı buz bulaqları,*
*Həsənlə birgə gəz Dərələyəzdə.*

***Aşıq Mehdi***
***Həsən Mirzə***
***Bakı 1997***







## «QALDI» — «QALMAZ»
***deyişmə***

*Aşıq Mehdi*

Gəl sənə söyləyim əziz qardaşım,
Vətən Dərələyəz Xaçoya qaldı.
Qumlunun bulağı, Muradtəpəsi,
Məryəmin dığası Vaçoya qaldı.

*Həsən Mirzə*

*Aşıq Mehdi məğrur dayan, məğrur dur,*
*Vətən Dərələyəz Xaçoya qalmaz.*
*Qumlunun bulağı, Muradtəpəsi,*
*Məryəmin dığası Vaçoya qalmaz.*

*Aşıq Mehdi*

Yazının yaylağı, Culun havası,
Kəkliyin xınası, qartal yuvası,
Meşənin nərgizi, dağlar lalası,
Arama, Markara, Açoya qaldı.

*Həsən Mirzə*

*Aç tarixi keçmişinə nəzər sal,*
*Göytürkləri, Atillanı yada sal,*
*Teymurləngdən, Bayaziddən qılınc al,*
*Döyüş, vuruş, yurdun Açoya qalmaz.*

*Aşıq Mehdi*

Qayaların əksi, igid nərəsi,
Əyricə yaylağı, Cığın dərəsi.
Beçənin şan balı, yağın kərəsi,
Andoya, Samsona, Qıncoya qaldı.

*Həsən Mirzə*

*Vətən yada qalsa Tomris qan ağlar,*
*Babək daş məzarda od tutub yanar,*
*Şah Xətaim bil ki, Allahı danar,*
*Hünər göstər, yuvan Qıncoya qalmaz.*

*Aşıq Mehdi*

Balbasın qaymağı, küpənin yağı,
Arıncın balığı, palıd ocağı,
Keçə alaçığı, Qısırın dağı,
Qarnikə, Sərkizə, Qısdoya qaldı.





*Həsən Mirzə*

*Atatürkün qeyrətini bilir hay,*
*Səttar xanın cürətini bilir hay,*
*Heydərimin qüdrətini bilir hay,*
*Qorxma, ərlər yurdu Laçoya qalmaz.*

*Aşıq Mehdi*

Bolbulağın suyu, Ağxaç təpəsi,
Xınalı kəkliyin çolpa fərəsi,
Təndirin lavaşı, cəviz ləpəsi,
Vaskana, Civana, Armoya qaldı.

*Həsən Mirzə*

*Soğanlı, Vers dağı, Təkədonduran,*
*Ətəyi bənövşə, başı çən, duman,*
*Cənnət Dərələyəz, o gözəl məkan,*
*Droya, Seroya, Armoya qalmaz.*

*Aşıq Mehdi*

A Mehdi, dağlarda yaşıl yaylaqlar,
Talası baldırğan, sərin bulaqlar,
Meşələrdə közü düşmüş ocaqlar,
Vazgenə, Poqosa, Maşoya qaldı.

*Həsən Mirzə*

*Süsənli-sünbüllü yaşıl yaylaqlar,*
*Lilparlı, yarpızlı şır-şır bulaqlar,*
*Dədəm Qorqud gəzən qədim oylaqlar,*
*Həsən deyər heç vaxt Maşoya qalmaz,*
*Vətən Dərələyəz Xaçoya qalmaz!*

***Aşıq Mehdi,***
***Həsən Mirzə.***
***Bakı, 10 fevral 2000***







## TƏBRİZ

Yetmiş il yolları bağladı yağı,
Qoymadı üzünü görməyə, Təbriz!
Sinəmi yandırdı, dağladı yağı,
Qoymadı gülünü dərməyə, Təbriz!
Qardaşı, bacını görməyə, Təbriz!

Gəlmişəm üççə gün qoynunda qalam,
Qardaş tək qolumu boynuna salam,
Başına dolanam, qadanı alam,
Səs ver kamanına, sazına Təbriz!
Qovuş baharına, yazına, Təbriz!

İllərdən ən əziz ilin gəlibdir,
Görüşə ulusun, elin gəlibdir,
Parlamandan çoxlu Ərin gəlibdir,
Səninlə dərdini bölməyə, Təbriz!
Qəlbindən niskili silməyə, Təbriz!

Baxdım, heyran oldum, Ellər gölünə,
Qar düşmüşdü çiçəyinə, gülünə,
Şəhriyarın doğma. şirin dilinə,
Qurbanam, qurbanam, qurbanam, Təbriz!
Səttərxan elinə qurbanam Təbriz!

O taylı, bu taylı boyların birdir,
Güneyli-Quzeyli soyların birdir,
Dərd-qəmin, ələmin, toyların birdir,
Qardaşıq, qardaşı unutma, Təbriz!
Həsən Mirzəni də unutma, Təbriz!

***Təbriz, 26 dekbr 1998***







## GƏLMİŞƏM

Gözəl Naxçıvanım, qədim diyarım!
Bu gün sənin qucağına gəlmişəm.
Ey nəqşi-cahanım, canım, vüqarım,
Aç qolunu xoş çağına gəlmişəm,
Əshabi-kəhf ocağına gəlmişəm.

Gəldim yad eyləyəm doğma elləri,
Baxçasından dərəm qönçə gülləri,
Bir də gəzəm çəmənləri, çölləri,
Hüzuruna xoş niyyətə gəlmişəm,
Ana qəbrin ziyarətə gəlmişəm.

Gəldim yaylaqlara, dağlara çıxam,
Ordan viran olmuş yurduma baxam,
Həsənəm, bu gün var, bir günsə yoxam,
Vətən ətrin qoxlamağa gəlmişəm,
El-obanı yoxlamağa gəlmişəm.

***Naxçıvan, 12 noyabr 1999***

## "AY HƏSƏN MİRZƏ" - "BUTA"
***deyişmə***

*Buta*

Gəl məni dindirmə fəğan eylərəm,
Yaman yaralıyam, ay Həsən Mirzə!
Didərgin ellərin qərib qızıyam,
Ağlı-qaralıyam, ay Həsən Mirzə!

*Həsən Mirzə*

*Saz-söz xiridarı, dillər əzbəri,*
*Yenə zirvələrdə süzürsən, Buta!*
*Söz mülkündən seçib ləli, gövhəri,*
*İnci tək misrana düzürsən, Buta!*

*Buta*

Göyçə göl sinəmin çarpaz dağıdır,
Qarabağ bəxtimin qara bağıdır,
Yurdum başdan-başa qəm oylağıdır,
Araz məlallıyam, ay Həsən Mirzə!





*Həsən Mirzə*

*Sən Dədə Camala heykəl qoymusan,*
*Heykəlinə ləldən təməl qoymusan,*
*Şer dünyamıza məşəl qoymusan,*
*İlham ümmanında üzürsən, Buta!*

*Buta*

Alimsən, aqilsən, şairsən qardaş,
Canımda od, alov, kipriyimdə yaş,
Vurub gözüm tökdü, kim düzəltdi qaş,
Başı bəlalıyam, ay Həsən Mirzə!

*Həsən Mirzə*

*Qoşmaları yana-yana yazırsan,*
*Sözlərini qatıb qana yazırsan,*
*Hikmətləri ruha-cana yazırsan,*
*Şerimizə çələng hörürsən, Buta!*

*Buta*

Həmzələr fəndilə aldı Qıratı,
Koroğlu bəyənib minməz Düratı,
Çən-duman bürüyüb eli, elatı,
Bağrı paralıyam, ay Həsən Mirzə!

*Həsən Mirzə*
*Yurdum əldən gedib dözə bilmirəm,*
*Ağsaqqal tək eldə gəzə bilmirəm,*
*Toy-düyündə daha süzə bilmirəm,*
*Sən bu dərdə necə dözürsən, Buta!?*

*Buta*
Dərdi-qəm əlindən bad oldu Buta,
Özünü yandıran od oldu Buta,
Güllü Baş Keçiddən yad oldu Buta,
Eldən aralıyam, ay Həsən Mirzə!

*Həsən Mirzə*
*Eldən elə gedib Hüsen Saraclı,*
*Əmrah Gülməmmədov, Əhməd Sadaxlı,*
*Görüblər atamı sazlı, qonaqlı,*
*Sən Həsən Mirzəsiz gəzirsən, Buta!*

***Bakı, 10 aprel 2000***





## TAPIN GƏTİRİN

Niyə qan-yaş tökür, niyə ağlayır,
O qıza nə olub, tapın gətirin!
Fəryadı, naləsi ürək dağlayır,
O su sonasını tapın gətirin!

Üzə baxan kimi qəlbi oxuyur,
Bağ-baxçası müşkü-ənbər qoxuyur,
İnsana xoş sözdən çələng toxuyur,
O sehrikar qızı tapın gətirin!

Ağ bədən, ağ buxaq, incəbellidir,
Qaraqaş, qaragöz, siyahtellidir,
Şux yeriş, gülərüz, şirindillidir,
O ağ göyərçini tapın gətirin!

Ədası da gözəl, özü də gözəl,
Söhbəti də gözəl, sözü də gözəl,
Qəmzəsi də gözəl, nazı da gözəl,
O nazlı dilbəri tapın gətirin!

Göz oxşayır tovuz kimi naxışı,
Canlar alır oğrun-oğrun baxışı,
Rəssamı ram edir ceyran duruşu,
O Ahu-Ceyranı tapın gətirin!

Kim qəlbinə dəydi o şux gözəlin?
Hara uçub getdi o şux nazənin?
Şair təbiətli Həsən Mirzənin,
İlham pərisini tapın gətirin!

***Bakı, dekabr, 2000***







## BU GÖZƏLƏ

Qürurludur söz götürmür,
Yersiz yerə deyib gülmür,
Eyş-işrətlə ömür sürmür,
Kömək edin bu gözələ.

Mərcan dişli, bal dodaqlı,
Mərmər sinə, ağ buxaqlı,
Şux baxışlı, al yanaqlı,
Allah bəxt ver bu gözələ.

Zümzüməsi layla çalır,
Baxışıyla canlar alır,
Həsəni də oda salır,
Nə deyəsən bu gözələ?

***Bakı, 18 yanvar 2001***



## BELƏSİNƏ

*Telli Borçalıya*

Fərə kəklik kimi səkir,
Ovçu qıyma beləsinə.
Xain gözə o mil çəkir,
Bəxt diləyin beləsinə!

Tel tökülüb gözü üstə,
Dodaq nazik, ağız püstə,
Köz də bassa sinən üstə,
Of demə sən beləsinə!

Atəşindən ürək bişir,
Qoşa narı bəbək deşir,
Bel incədir, kəmər düşür,
Kəmər ol sən beləsinə!

Dost diləsə həbibi ol,
Xəstə olsa təbibi ol,
Yar ol desə məhbubu ol,
Tək qalmasın belə sinə!





Maral kimi oğrun baxır,
Ala gözü şimşək çaxır,
Zəlimxanı oda yaxır,
Göz dəyməsin beləsinə!

Qoy Zəlimxan saz götürsün,
Söz incisin telə düzsün,
Ya bir yolluq əl götürsün,
Dastan yazım beləsinə!

Şölə verir al yanağı,
Laləzardır baxça-bağı,
Həsən Mirzə «cavan» çağı,
Qurban kəsər beləsinə!

*Bakı, 12 fevral 2000*



## CEYRAN

Gözəl nəğməkarı, istedadları,
Arayıb, axtarıb, tapırsan Ceyran!
Tanınmış, seçilmiş sənətkarları,
Yarış meydanına atırsan Ceyran!
Bağlı mətləbləri açırsan Ceyran!

Mahnılar oxunur xoş avaz ilə,
Bir-birə cavablar asta, naz ilə,
Dünya gözəllərin gülər üz ilə,
Sağına, soluna düzürsən Ceyran!
Duyan könülləri üzürsən Ceyran!

Qoşa oxuyanlar bir-birə həmdəm,
Muğam, milli mahnı qəlbimə həmdəm,
Səs - avaz olanda məclisə həmdəm,
Sən onu qıyğacı süzürsən Ceyran!
Sevinib gözündən gülürsən Ceyran!

***Bakı, 20 iyul 2001***







## OLARMI?

***Osman Sarvəllinin "Olarmı?" rədifli qoşmasına nəzirə***

Niyə kədərlisən, niyə qəmlisən,
Dərdini səninlə bölüm, olarmı?
Kirpiyindən leysan kimi tökülən,
Gözünün yaşını silim, olarmı?

Gözlərimdə sən hamıdan gözəlsən,
Gülərüzlü, şirindilli gözəlsən,
Əhdə sadiq, eşqə sadiq gözəlsən,
Cığa telə çiçək düzüm, olarmı?

Ömrüm gilə-gilə əriyib gedir,
Bəzən silə-silə əriyib gedir,
Gözəlim, baharım əriyib gedir,
Gül baxçana qonaq gəlim, olarmı?

Hürisən, pərisən, mələk misalsan,
Həkimsən, təbibsən, məhi-tabansan,
Həsənin dərdinə çarə, dərmansan,
Qapına dərmana gəlim, olarmı?

***Bakı, 26 noyabr 1998***

## NƏ OLAR?!

***Dostumun dili ilə***

Nazlana-nazlana sallanan dilbər,
Qolumu boynuna salım, nə olar?!
Xumar-xumar baxıb can alan dilbər,
İncə belə kəmər olum, nə olar?!

Qara telin tökülüb ağ buxağa,
Mərcan dişin bürünüb bal dodağa,
Ala gözün yaraşır al yanağa,
İcazə ver həmdəm olum, nə olar?!

Ağ bədənın yeriyəndə titrəyir,
Mərmər sinən tərşamama bəsləyir,
Gülşən bağın müşkü-ənbər çiləyir,
Gülşən bağa qonaq gəlim, nə olar?!

Dostum dedi Həsən Mirzə tez ol, yaz,
Bu afətə, bu mələyə şeir yaz,
Çox gözəldir, qənirsizdir, tərif yaz,
Dedim dayan, təbə gəlim, nə olar?!

***Bakı, 2001.***





## NƏVƏLƏRİM

***Nəvələrimə - üç qız nəvəmə ithaf edirəm.***

Biri dağlar lalasıdır,
Biri sular sonasıdır,
Biri çiçək topasıdır,
Nəvələrim, nəvələrim.
Mənim gözəl nəvələrim.

Biri süsən-sünbülümdür,
Biri tər qönçə gülümdür,
Biri şeyda bülbülümdür,
Nəvələrim, nəvələrim.
Mənim göyçək nəvələrim.

Birisi Dan ulduzumdur,
Birisi dadım-duzumdur,
Birisi körpə quzumdur,
Nəvələrim, nəvələrim.
Mənim çiçək nəvələrim.

Biri çəməndə çiçəkdir,
Biri hamıdan göyçəkdir,
Biri topqara birçəkdir,
Nəvələrim, nəvələrim.
Mənim qəşəng nəvələrim.

Birisi fərə kəklikdir,
Birisi körpə əlikdir,
Birisindən yoxdur, təkdir
Nəvələrim, nəvələrim.
Mənim ceyran nəvələrim.

Birinin qaşı düyməli,
Biri özündən sürməli,
Birisi şirin, yeməli,
Nəvələrim, nəvələrim.
Şəkər-baldı nəvələrim.

Birisi çəmən turacı,
Birisi gözəllər tacı,
Birisi dərd-qəm əlacı,
Nəvələrim, nəvələrim.
Şipşirindi nəvələrim.

Birisi ağ göyərçindir,
Birinin teli çin-çindir,
Birisi pərvaz laçındır,
Nəvələrim, nəvələrim.
Körpə-kövrək nəvələrim.





Biri tovuz qanadıdır,
Biri ağzımın dadıdır,
Biri nənəmin adıdır,
Nəvələrim, nəvələrim.
Şən-mehriban nəvələrim.

Birisi kəklik xınası,
Birisi Bağdad xurması,
Birisi cənnət alması,
Nəvələrim, nəvələrim.
Nazlı-duzlu nəvələrim.

Biri qara göz nərgizim,
Biri canım, iki gözüm,
Həsən deyər budur sözüm:
Xoşbəxt olun, nəvələrim,
Ey, mənim qönçə güllərim.

***Bakı, 6 noyabr 2001.***



## GÜL VERDİ SƏNƏ

Səkkiz noyabrda bayram günündə,
O Şirvan gözəli gül verdi sənə.
Ağlı, qırmızılı dəstə gülündə,
Məhəbbət rəmzini lütf etdi sənə,
O Şirvan gözəli gül verdi sənə.

Gözündən güləndə, səni süzəndə,
Qəlbinin telini əzib, üzəndə,
Miz üstünə alma, nar düzüləndə,
Gözəllər gözəli dil verdi sənə.
O Şirvan gözəli gül verdi sənə.

Şairim! Nəzmə çək sən bu günləri,
Bu gündə sən tapdın könül dilbəri.
Bayram şənliyidir unut dərdləri,
Qəlbinin təbibi dil verdi sənə,
O Şirvan gözəli gül verdi sənə.

***Bakı, ADPU-nun xəstəxanası***
***8 noyabr 1959***



# Dərələyəz yada düşən, yad edilən vaxtlarda və digər məqamlarda deyilmiş sətirlər

*Sənsə dönmə, Dərələyəz!*

Xoş baharım qışa dönüb,
Yanan çıraqlarım sönüb,
Zamananın üzü dönüb,
Sənsə dönmə, Dərələyəz!

*Ürək dözmür, Dərələyəz!*

Əriyirəm gilə-gilə,
Göz yaşlarım silə-silə,
Törədilən fitnə-felə,
Ürək dözmür, Dərələyəz!

*El ağlayır, Dərələyəz!*

Doğranıbsan dilim-dilim,
Elin itib ilim-ilim,
Qərib yerdə zülüm-zülüm,
El ağlayır, Dərələyəz!

*Bir az da döz, Dərələyəz!*

Yağıya qalıb diyarım,
Sökülüb ömür sarayım,
Dünyaya yetmir harayım,
Bir az da döz, Dərələyəz!





*Elinin qaydına qal, Dərələyəz!*

Sən mənim anamsan, mən sənin balan,
Balanı qoynuna al, Dərələyəz!
Tarix şahiddir ki, bu yurd bizimdir,
Haylardan qisası al, Dərələyəz!
Şaxtaya, borana sal, Dərələyəz!
Elinin qaydına qal, Dərələyəz!

*Sinəndə çağlasın saz, Dərələyəz!*

Həsrət arta-arta Ərşə dayanıb,
Ürəyimiz çalın-çarpaz dağlanıb,
Sinəm büryan olub, atəşdə yanıb,
Sən bunu tarixə yaz, Dərələyəz!
Düşmənin qəbrini qaz, Dərələyəz!
Sinəndə çağlasın saz, Dərələyəz!

*Həsən Mirzəni də an, Dərələyəz!*

Həsrətindən odlanıram, yanıram,
Yenə tək qalmısan can, Dərələyəz!
Gecə də, gündüz də səni anıram,
Sən də bu həsrətdən yan, Dərələyəz!
Qoy doğsun üstünə Dan, Dərələyəz!
Həsən Mirzəni də an, Dərələyəz!

***Mən səni anıram hey, Dərələyəz!***

Bağ-bağçamda daha bülbüllər ötmür,
Dərd-qəmim tükənmir, həsrətim bitmir,
Harayım, fəryadım heç yerə yetmir,
Qəddim yaya dönüb ey, Dərələyəz!
Bədəndə qalmayıb hey, Dərələyəz!
Mən səni anıram hey, Dərələyəz!

***Həsən səninlədir bil, Dərələyəz!***

Səndə mənim bağça-bağım qalıbdır,
Keçmişim, tarixim, tacım qalıbdır,
Cənnət kimi bir məkanım qalıbdır,
Mütləq gələcəyəm bil, Dərələyəz!
Çox ötüb keçsə də il, Dərələyəz!
Həsən səninlədir bil, Dərələyəz!

***Qəlbimdən kədəri sil, Dərələyəz!***

Yağı düşmən bizi çöllərə salıb,
Sonalı göllərim sonasız qalıb,
Səndə cavanlığım, xatirəm qalıb,
Yaman ağır keçir il, Dərələyəz!
Ətrini gətirmir yel, Dərələyəz!
Qəlbimdən kədəri sil, Dərələyəz!





***Didərgin elini gəz, Dərələyəz!***

Səfalı, şəfalı Cənnət bağımsan,
Həkimim, təbibim, sən loğmanımsan,
Heç kimə verməməm, öz diyarımsan,
Həsən Mirzə gələr döz, Dərələyəz!
Yağının başını əz, Dərələyəz!
Didərgin elini gəz, Dərələyəz!

***Ana torpağımsan, ay Dərələyəz!***

Sən mənim anamsan, Cənnət bağımsan,
Yurdumsan, yuvamsan, başda tacımsan,
Canımsan, qanımsan, şah damarımsan,
Sən dağ vüqarımsan, ay Dərələyəz!
Doğma diyarımsan, ay Dərələyəz!
Ana torpağımsan, ay Dərələyəz!

***Həsəni bu dərddən qurtar, ay Allah!***

Elimi Vətənə qaytar, ay Allah!
Yurduma, yuvama qaytar, ay Allah!
Həsrətdən qamətim yaya dönübdü,
Həsəni bu dərddən qurtar, ay Allah!

## ƏZABLI

Vətəndə iz qoyub getdi Əzablı,
Təkrarsız söz qoyub getdi Əzablı,
Hikməti yüz qoyub getdi Əzablı,
İlqarı düz qoyub getdi Əzablı,
Dostluqda üz qoyub getdi Əzablı,
Sədəfli saz qoyub getdi Əzablı,
Qəlblərə köz qoyub getdi Əzablı.

***Bakı, 2001 Natəvan adına klub Mikayıl Əzablının yubileyində çı-xışdan sonra bədahətən deyilmişdir***







## YÜZÜ DƏ YAŞA

Allah vergisidir, şerin, hikmətin,
Əllini tez vurdun, tez vurdun başa.
Heç vaxt itməyəcək qədrin, qiymətin,
Əlli yaş nədir ki, yüzü də yaşa.



***Bakı, 2001***
***Şairə Səadət Butanın yubileyində çıxışın axırında bədahətən deyilmişdir***

**Həsən Mirzəyə verilən cavablar, edilən müraciətlər və ona həsr olunan digər şerlər**



## DƏRDİMİ

*Dostum, qardaşım və ağsaqqalımız Həsən Mirzəyə cavab*

Başına döndüyüm, ay Həsən qağa,
Aqillər gərəkdi sora dərdimi.
Dərd məni neçə yol toruna saldı,
Mən sala bilmədim tora dərdimi.

Dözürəm, varlığım daşdı, can deyil,
Adım xan olsa da bəxtim xan deyil,
Onsuz da deyməklə qutaran deyil,
Aparıb gedərəm gora dərdimi.

Gün doğa, Allahım üzümə baxa,
Acı nisgilləri yandıra, yaxa,
Baxdım qılınc kimi qınından çıxa,
Teyləyə, qaçıra, yora dərdimi.

Keçirir odumu, kəsir istimi,
Qayğılar qoşun tək alır üstümü,
Görmür dumanımı, görmür tüstümü,
Mən necə göstərim kora dərdimi.

Acı küləklərdi başımdan əsən,
Mən Yaqub Zəlimxan, sən Mirzə Həsən,
İnsandı asdıran, insandı kəsən,
Salıb müsibətə, zora dərdimi.

***Zəlimxan Yaqub***
***Bakı, 23 noyabr 2001***







## DƏRDİMİ

***Əziz müəllimim, gözəl insan, böyük alim və ağsaqqal Həsən Mirzəyə cavab***

Həsən Mirzə, dərdlərindən söz açdın,
Bir idi, yetirdin yüzə dərdimi.
Bir alim istərəm saf-çürük edib,
Əsrin yaxasından düzə dərdimi.

Qürbət darağında tel itirmişik,
Yalçın qayalarda sel itirmişik,
Vətən itirmişik, el itirmişik,
Qoy açım, söyləyim Sizə dərdimi.

Qərbi Azərbaycan – Göyçə, Zəngəzur,
Unudulan deyil dayanıb məğrur,
Hanı o dəyanət, əzəmət, qürur,
Əl atıb köksümdən üzə dərdimi.

Ulu babaların baş daşı Vətən,
Müdrik xəyalımın təlaşı Vətən,
Şəhid anaların göz yaşı Vətən,
De, hardan axtara, gəzə dərdimi.

Çağladan şerindir, çağlayan mənəm,
Həsrət yaraları bağlayan mənəm,
Ağladan fikrindir, ağlayan mənəm,
Bükübsən alova, közə dərdimi.

Vətənsiz dünyanın ehtişamı yox,
Közərən ocağı, yanan şamı yox,
Çörəyin tamı yox, duzun tamı yox,
Alimsən, dahisən bəzə dərdimi.

Alqayıt inləyir bir qeyri səsdə,
Nə qədər yaşasın könül məhbəsdə?
Oxu bu şerimi Milli Məclisdə,
Bəlkə çıxardalar üzə dərdimi.

***Alqayıt***
***Bakı, 20 noyabr 2001***







## DƏRDİMİ

***Xətrini dünyalar qədər istədiyim alim, aqil, yetimlər dayağı, yoxsullar köməyi, əziz qardaşım Həsən Mirzənin «Dərdimi» şerinə cavab***

Dərdinə can qurban, ay Həsən Mirzə,
Dindirmə, alınmaz qala dərdimi.
Qaçqın, köçkün elim ürək dağlayır,
Qoyma qiyamətə qala dərdimi.

Gözəl Qarbağda virandı bağlar,
Dərələz yad əldə, könlüm qan ağlar.
Göyçə, Zəngəzurda kimsəsiz dağlar,
Dərdimənd istərəm bölə dərdimi.

Bilsə nə iş tutub zaman ağlayar,
Olar göz yaşları ümman ağlayar,
Bilsə başdan-başa Turan ağlayar,
Yaxşı ki, bilməyir hələ dərdimi.

Dövran can evimi viran eyləyib,
Oxlayıb bağrımı şan-şan eyləyib,
Zaman el-obamı peşman eyləyib,
Kərəməm, çəkəmmir Lələ dərdimi.

Təbrizim susubdur, danışmır, dinmir,
Nələr çəkdiyimi o hələ bilmir,
Mənimlə ağlamır, mənimlə gülmür,
Döndərmir pətəkdə bala dərdimi .

Alıbdı üstümü qəm çətən-çətən,
Yurduma göz dikib hər yoldan ötən,
Parçalanıb Vətən, tapdanıb Vətən,
Ər igid gərəkdir ala dərdimi.

Qərbi Azərbaycan yurdundan pərən,
Dərbənd dərd əlindən bağlayıb vərəm,
Laçın, Kəlbəcərə yox gedib gələn,
Atıb ocaqlara qala dərdimi.





İlməksiz ilgəkdi, düyündü dünya,
Sütunsuzam dedi öyündü dünya,
Havası bilinməz oyundu dünya,
Mən kimə söyləyim belə dərdimi.

Qar yağıb qar üstə ərimir neynim,
Karvanım köç olub yerimir neynim,
Qəmlər haray çəkir kirimir neynim,
Gətirə bilmirəm yola dərdimi.

Butayam dözmərəm, tüğyan eylərəm,
İnqilab eylərəm, üsyan eylərəm,
Vətənə canımı qurban eylərəm,
Ay Allah, parçala, tala dərdimi.

**Səadət Buta**
**Bakı, 26 oktyabr 2001**



## AY HƏSƏN

***Müəllimim, şair dostum***
***Həsən Mirzəyevə***

Qərbi Azərbaycan adına bağlı,
Sən yurdumun yaddaşısan, ay Həsən.
Yaşadın çınqına, oduna bağlı,
Ocaq yeri, yurd daşısan, ay Həsən.

Dilimizin xəzinəsi, yatarı,
Nitqimizin güvənc yeri, tutarı,
Taleyimin kədər yüklü qatarı,
Kipriyimin göz yaşısan, ay Həsən.

Baş vurdun dərinə, keçmədin üzdən,
Seçdi təxəyyülün əyrini düzdən,
Danışdın Göyçədən, Dərələyəzdən,
Nəsillərin yaddışısan, ay Həsən,





Sən leysan yağışlar, sel şairisən,
Bir həzin, bir kövrək dil şairisən,
Millət vəkilisən, el şairisən,
Ana yurdun daş-qaşısan, ay Həsən.

Hər rüzgara sərt söyləmək çətindir,
Hər insana mərd söyləmək çətindir,
Hər yetənə dərd söyləmək çətindir,
Alqayıdın sirdaşısan, ay Həsən.

**Alqayıt**
**Bakı şəhəri**
**26 noyabr 2001.**

## AY HƏSƏN MİRZƏ

Yenə də qayğımı çəkən sən oldun,
Nə yaxşı sən varsan, ay Həsən Mirzə!
Dünya xali deyil, başına dönüm,
İnam, etibarsan, ay Həsən Mirzə!

Kim ki, taxt-tac aldı, könül almadı,
Silindi həyatda izi qalmadı,
Ev yıxıb, qan tökən bil, ucalmadı,
Sən ellərə yarsan, ay Həsən Mirzə!

Günahsız odlara qalanan da var,
Yurdu viran olub talanan da var,
Özgə bucağında yallanan da var,
Əyilməz vüqarsan, ay Həsən Mirzə!

Mərdin ocağında közə vurğunam,
Sevdalı, sədalı sözə vurğunam,
Əyriynən işim yox, düzə vurğunam,
Sən ki, düz ilqarsan, ay Həsən Mirzə!

Dərdimənd eylədi vətən Butanı,
Əydi yaylar kimi sitəm Butanı,
Daha öldürəmməz bu qəm Butanı,
Güvəndiyim dağsan, ay Həsən Mirzə!

***Səadət Buta***
***Bakı şəhəri, 5 iyul 2001***





## YARADIB

Dağlar oğlu Həsən məllim!
Allah səni pir yaradıb.
Ellər deyir yüz nəfərdi,
Yox-yox ancaq bir yaradıb.

Dağlarımın lalasını,
Vətənimin qalasını,
İbrahimin balasını,
Yaradanım dürr yaradıb.

Çiçəkləri gilə-gilə,
Qüzeylərdə silə-silə,
Muradtəpə gəldi dilə,
Öz oğlunu şir yaradıb.

Döyüşlərdə döyülməyən,
Namərdlərə əyilməyən,
Mərifətdə söyülməyən,
Ər oğlunu ər yaradıb.

Mehdi demə bu bir baxtdı,
Xal qazanıb xalı çoxdu,
Kişilikdə tayı yoxdu,
Gövhər üstə zər yaradıb.

***Aşıq Mehdi***
***Xızı-Altıağac, 14 iyun 1998***

## YARADIB

Deyilənlər düzdü, Vallah.
Allah onu bir yaradıb.
Mirzəloğlunun oğludur,
Dərələzdən dürr yaradıb.

Həsən Mirzə tac alandı,
Aşıqlardan bac alandı,
Millətindən güc alandı,
Pir ocaqdan pir yaradıb.

Cəsarətdə birincidi,
Hər kəlməsi dürr, incidi,
Sevənlərin sevincidi,
Xain gözə tir yaradıb.

Ağsaqqaldı el-obaya,
Yaraşıqdı toya-vaya,
Tez çatandı darda hoya
Kamalını nur yaradıb.

Odur yaxşı-yaman seçən,
Dost yolunda candan keçən,
Zəki İslam badə içən,
Şairlikdə sir yaradıb.

***Zəki İslam***
***Bakı, 27 mart 1999***





## HƏSƏN MİRZƏYEV

Gözüm bulaqlardır ağlayır həzin,
Dərdimin dərmanın dağlarda gəzin,
O behişt ətirli Dərələyəzin,
Çiçəyi, gülüdü Həsən Mirzəyev.

Zərgərdən sorarlar zərin qiymətin,
Elmidir əsası mədəniyyətin,
Zavallı millətin, dərdli millətin,
Danışan dilidi Həsən Mirzəyev.

Həzin nəğməsidir sədəfli sazın,
İsti nəfəsidir Baharın, Yazın,
Arpa çayı ilə Kürün, Arazın,
Uzanan qoludu Həsən Mirzəyev.

Təsnifdi, təcnisdi, həm bayatıdı,
Muğamdı, Şirazdı, Şur, Heratıdı,
Elimin şənliyi, toy-büsatıdı,
Ağsaqqal yoludu Həsən Mirzəyev.

Alimlər yanında adı, hörməti,
Ariflər yanında qədir-qiyməti,
Məclislər dolaşır sözü-söhbəti,
Ağzımın dadıdı Həsən Mirzəyev.

Zirvəmdə qar, boran, ürəyimdə qış,
Bəxtimdə görmədim təpər, oyanış,
Alim, hər sirrini get ona danış,
Dərdindən halıdı Həsən Mirzəyev.

***Alim Dərələyəzli***
***Bakı, 16 iyul 2000***







## VURĞUNUYAM

***Milli Məclisin deputatı, el ağsaqqalı, dilçi alim, şair Həsən Mirzəyə ithaf edirəm***

Dünya görmüş qocaların,
Söz-söhbətin vurğunuyam.
Könül açan mahnıların,
Şeriyyətin vurğunuyam.

Ana vətən mənəm balan,
Nəfəsimsən, deyil yalan,
Öz eşqinə sadiq olan,
Məhəbbətin vurğunuyam.

Quşlardan da erkən oyan,
Tər çiçək üz, şehə boyan,
Başdan - başa göz oxşayan,
Təbiətin vurğunuyam.

Yaddır mənə hiylə, yalan,
El içində təmiz dolan,
Şər-böhtana qalxan olan,
Həqiqətin vurğunuyam.

Qarı mənəm uca dağın,
Gülü mənəm bağça-bağın,
Bu vətənin, bu torpağın,
Bu millətin vurğunuyam.

Torpağına bağlı olan,
Millətinə candan yanan,
Həsən kimi mətləb qanan,
Ağsaqqalın vurğunuyam.

Namərdlərə əyilməyən,
Heç bir zaman öyünməyən,
Kişi kimi sözün deyən,
El oğlumun vurğunuyam.

El - obaya çıraq olan,
Kimsəsizə dayaq olan,
Ədalətə mayaq olan,
Həsən Mirzə vurğunuyam

*Alim Dərələyəzli*
*Bakı, 10 dekabr 2000*





**HƏSƏN MÜƏLLİM**

Qəlbinin saflığı üzündə gülən,
Bir el ağrısına çiynini verən,
Hamının, hər kəsin dərdini bölən,
Hamıya yaxşılıq edən müəllim —
Həsən müəllim.

Böyüklə böyükdür, uşaqla uşaq,
Qaməti, yerişi — gəncliklə qoşa.
Nə sevincdən dönən, nə qəmdən qaçan,
Hamının dadına yetən müəllim —
Həsən müəllim.

Bahar sevdalıdır ömrünün qışı,
Tərlandır, gözündən ovlayır quşu.
Məclisdə, mağarda, eldə söz qoşub
Aşığı, şairi ötən müəllim —
Həsən müəllim.

Zəhməti ömrünün mənası bilib,
Öz ana dilidir elminin dili,
Kəlmənin, cümlənin, nöqtə-vergülün,
Üstündə daima əsən müəllim —
Həsən müəllim.

Arxadır, dayaqdır qohuma, yada,
Ətəyindən tutan yetər murada.
Qocaya oğuldur, cavana ata,
Qürbətə düşənə Vətən müəllim —
Həsən müəllim.

*Firuzə Məmmədli*
*Bakı, 24 oktyabr 1999*







## AY ALİM HƏSƏN, AY ŞAİR HƏSƏN

***Qüdrətli alim, qadir şair Həsən Mirzə «Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz» kitabını mənə xoş sözlərlə, xoş arzularla hədiyyə göndərib, almışam...***
***Aldığımı belə xəbər verirəm:***

Aldım göndərdiyin zor hədiyyəni,
Nə şirin maraqdı, ay alim Həsən!
Sazın tarixindən, söz qüdrətindən,
Bir qızıl varaqdı, ay alim Həsən!
Şerdən soraqdı, ay şair Həsən!

Verər qiymətini, qədrini qanan,
Ozan sənətini anlayan, anan...
Bu Çıraqqalamda əbədi yanan,
Sönməz bir çıraqdı, ay alim Həsən!
Şerdən soraqdı, ay şair Həsən!

Bar dərər bağ salan, biçər yer əkən,
Tarixdə yaşayar yaradan, tikən,
Könüllər telinə xoş sığal çəkən,
Ən gözəl daraqdı, ay alim Həsən!
Şerdən soraqdı, ay şair Həsən!

Ay qılınc sıyıran, ay köhlən minən,
Sən tək dədə olur yerindən dinən?
Amansız yağının başına enən,
Kəsərli yaraqdı, ay alim Həsən!
Şerdən soraqdı, ay şair Həsən!

Bir şair oğlusan, şair millətin,
Bəllidir amalın, fitrin, fitrətin,
Əli Dastançıya doğru ülfətin,
Demədin dastandı, ay alim Həsən!
Şerdən soraqdı, ay şair Həsən!

*Əli Qurban Dastançı*
*Gəncə, 16 iyun 1999*







**BAĞIŞLAYIB**

*Həsən Mirzəyə ithaf edirəm*

Süfrə açan əllərini,
Allah özü bağışlayıb.
Şölə saçan əllərini,
Allah özü bağışlayıb.

Meydanlarda tac almağı,
Düşmənindən bac almağı,
Hatəm kimi ucalmağı,
Allah özü bağışlayıb.

Dostlar yeyən çörəyini,
Əyilməyən biləyini,
Səxavətli ürəyini
Allah özü bağışlayıb.

Ağarmayan birçəyini,
Dəstələnmiş çiçəyini,
Balla dolu pətəyini
Allah özü bağışlayıb.

Kişi kimi dolanmağı,
Koroğlu tək sallanmağı,
Mehdi kimi xal yığmağı,
Allah özü bağışlayıb.

***Aşıq Mehdi***
***Bakı, 1996***







## G Ö R Ü M

***Həsən müəllimə, aşıq sənətinin xiridarına ithaf edirəm***

Bir hikmətin sorağında gəzirəm,
Hər kəs varlığında bir olsun, görüm.
Yaradan yaradıb, bəxş eləyibdi,
Ağac budağında bar olsun, görüm.

Nadanlar Allahı dandı, öyündü,
Haqq yaradan varlıq Yerin, Göyündü,
Kişilər tütüyə dönübdü indi,
Bunları görməyən kor olsun, görüm.

Danışanda ləl tökülür dilindən,
Şeyda bülbül vüsal tapır dilindən,
Adı bəlli Dərələyəz elindən,
Həsən Mirzə kimi pir olsun, görüm.

Varlığında söykənibdi Adəmə,
Səxavətdə bənzəri var Hatəmə,
Ömrü boyu rast gəlməsin sitəmə,
Aqil dədələr tək nur olsun, görüm.

Dosta qurban edir sərvəti, varı,
Yadından çıxarmır o sənətkarı,
Aşıq Ulduz vəsf et belə dostları,
Daim bu dostluğu var olsun, görüm.

*Aşıq Ulduz*
*25 aprel 1999*







**KÜSMÜŞƏM**

***Millət vəkili Həsən Mirzəyə***

Həsən Mirzə bu dünyanın gərdişi,
Olubdu qəlbimdə güman küsmüşəm.
Diqqətin yayınıb el aşığından,
Yaman incimişəm, yaman küsmüşəm.

Xanimanım, var-dövlətim, pulum yox,
Bir bağbanam, dəriləsi gülüm yox,
Bir sazım var, təkcə ona ölüm yox,
Qanmazın quludu, qanan küsmüşəm.

Dilotu yeyəcəm söyləmək üçün,
Hicranı çağırıb əyləmək üçün,
Dostları mehriban eyləmək üçün,
Yolumuzu tutub duman küsmüşəm.

Sən Milli Məclisin ağsaqqalısan,
Xalqın sevimlisi, beçə balısan,
Aqilsən, kəsirsən qeyli-qalı sən,
Əldən gedib ilqar, iman küsmüşəm.

Qəmdən şələ vurdum, ağırdı yüküm,
Saz-söz çələngimi de, necə söküm,
Ulduzam, dərd-qəmi mən təkmi çəkim,
Barışan deyiləm, inan küsmüşəm.

***Aşıq Ulduz***
***Bakı şəhəri, 15 oktyabr 2001***







## AY HƏSƏN QAĞA

***El ağsaqqalı, istedadlı***
***alim Həsən Mirzəyə***

Fələk gorgahıma süpürgə çəkdi,
Gülümdən ayrıldım, ay Həsən qağa!
Kotan nə bildi ki, qayış nə çəkdi,
Elimdən ayrıldım, ay Həsən qağa!

Hünər köhlənimi dörd yana çapam,
İtən günlərimi yenidən tapam,
Şehli çiçəklərin qoynunda yatam,
Gülümdən ayrıldım, ay Həsən qağa!

Qovurğam tabaqda qaldı, çiysidi,
Nənəm təhnəsində sərdi çiy südü,
Əynimdə libasım sanki əysidi,
Tülümdən ayrıldım, ay Həsən qağa!

Hanı Dərələyəz, o Cənnət məkan,
Şişbuynuz Təkəli, Təkədonduran,
Göyçə elsiz qalıb, kor olsun dövran,
Çölümdən ayrıldım, ay Həsən qağa!

Gəl gedək dağları dolanaq qoşa,
Heykəl qayalarla verək baş-başa,
Ömür xəlvət-xəlvət üz tutub qışa,
İlimdən ayrıldım, ay Həsən qağa!

Hanı Zəngəzurum, hanı Borçalım,
Bilmirəm qeyrəti kimdən borc alım,
Didərgin elimə necə əl çalım,
Lələmdən ayrıldım, ay Həsən qağa!

Mən dərddən qaçıram, dərd məni qovur,
Ocaq məni qovur, yurd məni qovur,
Qarışıb ruzigar, sərt məni qovur,
Selimdən ayrıldım, ay Həsən qağa!

Şair soraqlayır «Ballı gözəni»,
Yaylaqda gəzəni, dağda gəzəni,
Lələdağ haraylar Həsən Mirzəni,
Zilimdən ayrıldım, ay Həsən qağa!

*Əvəz Lələdağ*
*Sumqayıt, 10 sentyabr, 2001*





## AY HƏSƏN MİRZƏ

Özündən çox deyib öyünənləri,
Gətirdin dizə sən, ay Həsən Mirzə!
Hər sözün, hər kəlmən qılınc tiyəsi,
Şax dedin üzə sən, ay Həsən Mirzə!

Sən şeir vurğunu, sənət vurğunu,
Oldun bu yollarda fikir yorğunu.
Keçib Ələyəzi, aşıb Ağrını,
Tər güllər üzəsən, ay Həsən Mirzə!

Çəmən çiçək-çiçək açıla birdən,
Günəşin şəfəqi saçıla birdən,
Göydağdan qartallar ucala birdən,
Süzdükcə süzəsən, ay Həsən Mirzə!

Göyçə, Dərələyəz gözləyir bizi,
Həsrətdən saralıb Ağbaba düzü,
Qarlı zirvələrdə dindirib sazı,
Qoşqular düzəsən, ay Həsən Mirzə!

Avtandil, dünyanın yox etibarı,
Mərdlik, kişilikdir ən böyük varı,
Yığılır başına deyir dostları,
İşıqsan bizə sən, ay Həsən Mirzə!

***Avtandil Ağbaba***
***Sumqayıt, 2 sentyabr 2001***







## AY HƏSƏN QAĞA

Təsadüfi görüş nə gözəliymiş,
Sənki şəkər, balsan, ay Həsən qağa!
Sevgi-məhəbbətin təzə-təriymiş,
Bizə ağsaqqalsan, ay Həsən qağa!

«Valeh Zərniyar»dan eylədik bəhsi,
Canında cavanlıq eşqi, həvəsi,
Sinəndə ellərin şirin ləhcəsi,
Gözəl ziyalısan, ay Həsən qağa!

Dağıla Vətənin dumanı, çəni,
Təbrizdən danışdın qəm boğdu məni,
Təbrizin valisi görəydim səni,
Çünki pürkamalsan, ay Həsən qağa!

«Dağlar»ı deyəndə sinəm alışdı,
Hüzürü unutdum, ruhum lap çaşdı.
Saz, ilham Səməndi dağları aşdı,
Sehrili tonqalsan, ay Həsən qağa!

Çox şükür, dinlədin sən də Salmanı,
Qaynadı Sizlərə şairin qanı,
Haqq-tala ucaltsın sən tək insanı,
Millət vəkilisən, ay Həsən qağa!

***Salman Qazi***
***Bakı, 15 mart 2000***







## AY HƏSƏN MƏLLİM

***Əziz müəllimim, orta məktəbdə mənə gözdən od çıxaran şillələr çəkən, Dərələyəz elinin ağsaqqalı, dilçi-alim, Milli Məclisin deputatı Həsən Mirzəyevin portreti qarşısında düşüncələrim***

Gözlərin zillənib çox uzaqlara,
Dərin xəyaldasan, ay Həsən məllim!
Yoxsa seyrə çıxıb bizim dağlara?
Qalxdıqca qalxırsan, ay Həsən məllim!

Nur tökülüb üzün qırışlarına,
Sanki qar ələnib ağ saçlarına,
Bənzəyirsən Dəmirtəpə dağına,
Baxdıqca baxırsan, ay Həsən məllim!

Sən bizim ellərin alim oğlusan,
Fəxr edir səninlə o ellər inan,
Arpadan başlamış Qabaxlıyacan,
O elin fəxrisən, ay Həsən məllim!

Çəkirsən qeyrətin doğma vətənin,
Hər qarış torpağın, çayın, çəmənin,
İndi nə sənindi, nə də ki mənim,
Bilirəm dərdlisən, ay Həsən məllim!

Şəkil də fəxr edir inan səninlə,
Böyük hörməti var öz məlliminə,
Bil dayaqsan qaçqın düşmüş elinə,
Namus qeyrətisən, ay Həsən məllim!

***Şəkil Dərələyəzli***
***Bakı, 5 noyabr 2000***







## VAR

***Həsən Mirzəyevə ithaf edirəm***

Mənəvi dəyərlər ucuzlaşsa da,
Onları müqəddəs sayanlar da var.
Dayazlar həddini keçib, aşsa da,
Müdriklər şəmi tək yananlar da var.

Görkəmi mərdanə, məğrur, vüqarlı,
Özü, qəlbi təmiz, zəhməti barlı,
Dil tədris etməkdən dili qabarlı,
Təəssüf, bu haqqı dananlar da var.

Bil, dilə borcludur şer, qəzəl də,
Alim də, şair də, incə gözəl də,
İnsan, insan olub dillə əzəldə.
Bunu duyanlar da, ananlar da var.

Ay Həsən müəllim, ey əziz addaş,
Təhsildə sizinlə olan kəs, yoldaş,
Sizdən mərdanəlik öyrənəydi kaş,
Çox güman fikrimi qananlar da var.

***Həsənxan Manafov***
***tələbə, Şamaxı rayonu,***
***I Çaylı kəndi, 2 yanvar 1995***

## HƏSƏN MÜƏLLİM

Ayrılıb vətəndən düşdük qürbətə,
Ey əziz müəllim, Həsən müəllim!
Çətin o yerlərə əlimiz yetə,
Ey əziz müəllim, Həsən müəllim!

Qaçqın sözü yara vurub qəlblərə,
Çarə tapılmırmı, belə dərdlərə,
Siz kömək edirsiz kimsəsizlərə,
Ey əziz müəllim, Həsən müəllim!

Qovuldu vətəndən neçə yurddaşın,
Ağrıdı ürəyin, axdı göz yaşın,
Ağarıb saçların, ötübdü yaşın,
Ey əziz müəllim, Həsən müəllim!

Sözlərin ciddidir, qəlbinsə kövrək,
Bu incə qəlbini duyaq biz gərək,
İstərik biz, Sizə imtahan verək,
Ey əziz müəllim, Həsən müəllim!

Sanıram arxamda uca bir dağsan,
Sizə sığınmışam bir nəzər salsan,
Mərziyə sevinər kəsiri yazsan,
Ey əziz müəllim, Həsən müəllim!

***Mərziyə Kəlbəcərli***
***tələbə, Bakı şəhəri, 21 iyul 1997***





## GƏLMİŞƏM

***Həsən Mirzəyevə***

Həsən məllim, çınqı düşüb qəlbimə,
Bu yerlərə qar almağa gəlmişəm.
Günəş payız tellərini sərəndə,
Heyva kimi saralmağa gəlmişəm.

De, nə qədər qərar tutum gendə mən,
Əriyirəm gilə-gilə gündə mən,
Ürəyimə alov yağan gündə mən,
Sizin dağdan qar almağa gəlmişəm.

Eldar Sadıq eşq oduna qalandı,
Demə qəlbi uralandı, talandı,
Bura gəlmək bəhanədi, yalandı,
İnistutdan yar almağa gəlmişəm.

***Eldar Sadıq***
***27 iyul 1978***



## HƏSƏN MƏLLİM

Çıxmır xəyalımdan doğma yurdumuz,
Axır gözlərimdən çay, Həsən məllim!
Gəzsən yer üzünü, bütün hər yeri,
Tapılmaz yurduma tay, Həsən məllim!

Adı Dərələyəz — əvəzsiz diyar,
Qoynunda yaşayan olur bəxtiyar,
Düşmənə verməyi kim ona qıyar,
Oldu ermənıyə pay, Həsən məllim!

Göylərə baş vuran uca dağları,
Cənnətə bənzəyən gözəl bağları,
Gözümdə canlanır keçən çağları,
O el şənlikləri, toy, Həsən məllim!

Şirin nəğməlidir buz bulaqları,
Dağların gül açır al yanaqları,
Yurdumun yamyaşıl o yaylaqları,
Düşürmü yadına ay, Həsən məllim!

Baharda al yaşıl dona bürünür,
Hərdən sinəsində duman sürünür,
Yalçın qayalarda ovlar görünür,
Qəlbimə od salır uy, Həsən məllim!





Yada salırsanmı coşğun çayları?
Ömürdən xoş keçən ili, ayları,
Füsunkar yurdumun yazı, yayları,
Gəlsin göz önünə May, Həsən məllim!

Kəkliklər uçuşub qonardı daşa,
Qonaqlar gələndə keçərdi başa,
Mehriban olardı yoldaş-yoldaşa,
İndi tamam olub zay, Həsən məllim!

Məclis qurulardı çeşmə başında,
Əmlik kəsilərdi körpə yaşında,
Ovlar vurulardı Adamdaşında,
Düşməsin yadına qoy, Həsən məllim!

İndi sonaları üzür göllərdə,
Gül - çiçəklər ətir tökür çöllərdə,
Həzin-həzin əsən sərin yellər də,
Dağlayır sinəmi oy, Həsən məllim!

Hanı Dəmirtəpə, Göytəpə hanı?
Təkədonduranım dağların xanı,
Qırxbulaq, Soğanlı, Təzəkli, Canı,
Mən deyim birbəbir say, Həsən məllim!

Axır büllur kimi suları sərin,
Üzündən nur yağır mavi göylərin,
Ətri çar olduqca bəyaz çöllərin,
Yaz kimi keçirdi Yay, Həsən məllim!

Çox valeh edirdi gəlib-gedəni,
Əylərdi hər zaman yoldan ötəni,
Belə gözəl yeri, gözəl Vətəni,
Aldı əlimizdən hay, Həsən məllim!

Heç əksik olmazdı başının qarı,
Həddini aşardı dövləti, varı,
Hər gün yön çevirib vətənə sarı,
Həsrətlə baxıram day, Həsən məllim!

O gün olsun doğma yurdla görüşək,
Qucaqlaşıb bir ürəkdən öpüşək,
Ana-bala kimi sevək, sevişək,
Bu da olsun bizə pay, Həsən məllim!

***Əli Əkbər Dərələyəzli***
***Bakı, 1996***





## VƏTƏNİM

***Professor Həsən Mirzəyə ithaf***

Mən necə unudum ulu dağları?
Dərələyəz vətənimdi, vətənim!
Almalı bağları, buz bulaqları,
Cənnətə misaldır, mənim vətənim.

Bəyəli yaylağı, Qiblə bulağı,
Cənnətin laləzar bir parçasıydı.
Bağrına basardı gələn qonağı,
Sallı bu yerlərin gül xalçasıydı.

"Cəlili" suların zümzüməsidir,
Xeyir-duasını Ələsgər verib.
Qəlblərə məlhəmdi Bəhmanın səsi,
Yaradan loğmana bərabər verib.

Rzaqulu, Qulu, Aşıq Mirzəli,
Sənətkar idilər başdan, binadan.
Hacıməmməd əmim, balaban Vəli,
İlham alardılar eldən, obadan.

Aşıq Bərxudarın gur zənguləsi,
Yerdə sədasıydı odlu şimşəyin.
Dağlarda gurlayan sellərin səsi,
Hücum nərəsiydi mərd igidlərin.

Əyricə yoluydu Səlim gədiyi,
Yaylağa gedərdi Şərur elləri,
Hər ulu ağacı köç kölgəliyi,
İmanın Dərəsi ünsiyyət yeri.

Çiçəkli baharda, barlı payızda,
Göyçə aşıqları məclis qurardı.
Hər igid oğlanda, ismətli qızda,
Nəbinin, Həcərin qeyrəti vardı.

Ellər məhrəm idi, vicdanlar təmiz,
Bir kəs o birinə tələ qurmazdı.
Ürəklər pak idi, insanlar təmiz,
Qonşu qonşusuna ziyan vurmazdı.

Əhriman dağıtdı gözəl növrağı,
Murdar əlləriylə quyular qazdı,
Özününkü etdi daşı, torpağı,
Türkün baş daşına adını yazdı.





Qisas qiyamətə qalmaz! - deyiblər,
Bir gün oyanacaq ruhu babamın!
Torpaqdan pay olmaz, olmaz! - deyiblər,
Tanrıya çatacaq ahı babamın!

"Dağlar" şerin ürəyimi dağladı,
Məlhəm o dağlardır, necə gətrim?
"Dərdimi" deyəndə elin ağladı,
Dərdli eli yurda necə yetirim?

Həsən Mirzə həsrətinə şərikəm,
Ulu Vətən yolumuzu gözləyir.
Mən Rəhmanam usanmaram ümiddən,
Dərələyəz, elimizi gözləyir.

***Rəhman Mustafayev***
***Bakı, 1999***

## AY HƏSƏN

***Gözəl alim, gözəl şair***
***Həsən Mirzəyevi dinləyərkən***

Dağlar bələnəndə qızıl laləyə,
Lilparlar bənzərdi bir piyaləyə.
Baxmaqdan doymazdıq gur şəlaləyə,
Dərələzə apar məni, ay Həsən!

Sanki ağ çalmadı zirvədə qarı,
Yamyaşıl olardı döşdə otları.
Bəlkə, ordan görəm Verdibasarı,
Cənnət yurda apar məni, ay Həsən!

Əyricə dağında qurardıq çadır,
Orda neçə-neçə xatirəm yatır.
Ürəyim yurduma yaman can atır,
Yaylağıma apar məni, ay Həsən!

Aşıq Mehdi orda qoy məclis qursun,
Zirvədə qartallar keşikçi dursun,
Yallıda cavanlar bir-birin yorsun,
Oylağıma apar məni, ay Həsən!





Şair oda yanır əlində qələm,
Bürüyüb qəlbimi qüssə, kədər, qəm,
O yeri yuxuda görməkdi peşəm,
Yurd-yuvama apar məni, ay Həsən!

Xəyalım dolaşdı aranı, dağı,
Dərdimə davadı o cənnət bağı.
Bizsiz açılmayır qaşı-qabağı,
Məskənimə apar məni, ay Həsən!

Uçub tərlan kimi qonaq dağlara,
Olaq canı-dildən qonaq dağlara,
Qayıdaq təzədən ötən çağlara,
Əyricəmə apar məni, ay Həsən!

Dağın bir tərəfi Vedibasardı,
Sıldırım qayalar sanki hasardı,
Həsrətin çəkməkdən saçım ağardı,
Sən Vedimə apar məni, ay Həsən!

Şəffaf bulaqları üzük qaşlıdı,
Göldə sonaları yaşılbaşlıdı.
Nə vaxtdı nərgizlər gözü yaşlıdı,
Qırxbulağa apar məni, ay Həsən.

Suyu dərdə dərman, çəməni çiçək,
Ceyranları ürkək, kəkliyi göyçək,
Yaşıl ormanlarda gül ləçək-ləçək,
Soğanlıya apar məni, ay Həsən!

O yerlərdə keçib uşaqlığımız,
Düşmən əlindədir bağça-bağımız,
Qələbə olacaq üz ağlığımız,
Ağmanqana apar məni, ay Həsən!

Dözmüşük, qalmayıb səbir yerimiz,
Nə bir yurdumuz var, nə bir yerimiz,
Tapdanır yad əldə qəbir yerimiz,
Pirlərimə apar məni, ay Həsən!

O yerdə xoş arzu, xoş məram qalıb,
Hələ almadığım arzu, kam qalıb,
Ata ocağıma ehtiram qalıb,
Öz yurduma apar məni, ay Həsən!

Təmiz arzularım getdi, dişəndi,
Qəlbdə xatirələr dondu, üşəndi,
Nə həyatım şəndi, nə qəlbim şəndi,
Toy-düyünə apar məni, ay Həsən!





Dözdürə bilmirəm dözümü daha,
Sənə çevirmişəm üzümü daha,
Saxlaya bilmirəm özümü daha,
Çəmənimə apar məni, ay Həsən!

Qıyma həsrətindən gözlərim dola,
Nə olar, bu dəfə barı gəl yola,
Bezmişəm, axırı nə ola-ola,
Dağlarıma apar məni, ay Həsən!

Dağdakı dumanlar xalqın ahıdı,
Yurd yeri millətin son pənahıdı,
Səfərbər olmalı zəfər çağıdı,
Qədim yurda apar məni, ay Həsən!

Nə yurdu bəllidi, nə də ünvanı,
On ildi qaralır şairin qanı.
Sənə yalvarıram sən Bilman canı,
Dərələzə apar məni, ay Həsən!

***Bilman Qüdrət (Vedili)***
***Bakı, 25 dekabr 2000***

# O L M A

*Həsən müəllimə müraciət*

Həsən məllim, Dərələzə gedəndə,
Elimin dağların gəzməmiş olma!
Baharın ilk çağı məxmər quzeydən,
Bənövşə, nərgizin üzməmiş olma!

Qanlı göl göylərə nazını satır,
Yalçın qayaları baş-başa çatır.
Hər daşın altında bir kitab yatır,
Külüngü götürüb qazmamış olma!

Elimin məclisi başa gələndə,
Qız-gəlin bəzənib qoşa gələndə,
Əlinə saz alıb coşa gələndə,
Giribən meydana süzməmiş olma!

Göylər kişnəyəndə axır selləri,
Laləzar eyləyir mavi çölləri,
Dərdimin dərmanı məxmər gülləri,
Tər buxaq altına düzməmiş olma!





Mən Mehdinin bağlasalar gözünü,
İtirmərəm ellərimin izini,
Mirzəli oğlunun inci sözünü,
Könül dəftərinə yazmamış olma!

*Aşıq Mehdi*
*Bakı, 1974*

## GƏZƏYDİK QOŞA

*Həsən müəllimə ithaf edirəm*

Mirzəli oğlunun Qartal balası,
Vətən dağlarını gəzəydik qoşa.
Şiş bəzənə, ocaq yana, köz düşə,
Müşfiqlə şişləri düzəydik qoşa.

Qız - gəlinlər dağa çıxa, yaylaya,
Qırxbulaqdan kətə sala, yağlaya,
Bənövşədən çələng hörə, bağlaya,
Süsəni, sünbülü üzəydik qoşa.

Kəhər atlar Qırxbulağa çatanda,
Saz dillənə günəş gedib batanda,
Arpaçayı layla çala yatanda,
Nəvələr toyunda süzəydik qoşa.

Qarı nənə çaydan süzə çaylaya,
Qızyetərqaçandan çoban haylaya,
Quzu kəsə, qonşulara paylaya,
Göydən qədəhlərə süzəydik qoşa.





Qarmaq ataq Gədikvəngin çayına,
Qayıl olaq Allah verən payına,
Əl qaldıraq haqq-talanın sayına,
Nərgiz, bənövşədən üzəydik qoşa.

Muradtəpəsinin sərt yoxuşundan,
Zirvədə qartalın ov baxışından,
Məxmər quzeylərin al naxışından,
İncilərə düzüb yazaydıq qoşa.

Həsənə de yəhərləsin atını,
Ellərdə başlasın toy-busatını,
Mehdi, sən aç kitabların qatını,
İbrahimdən inci düzəydik qoşa.

*Aşıq Mehdi*
*Tərtər, 1999*



## M Ə N

Nə yaxşı dözmüşəm, ay Həsən məllim!
Bu vətən dərdinə, bəlkə dağam mən?
Yadıma düşəndə ellər, az qalır,
Qara bulud olam, leysan yağam mən.

Həsən məllim, necə gedim yurda mən,
O yerlərdə saralıbdı göy çəmən,
Sahibsiz qalıbdı nərgiz, yasəmən,
Gərək şimşək olub ora çaxam mən.

Dağılıbdı yurdum, yanıram, küləm,
Dərələzsiz bir də çətin ki, güləm,
Mənsurəyəm, solmuş, saplaqsız güləm,
Kamanı qırılmış yaysız oxam mən.

*Mənsurə Dərələyəzli*
*Sumqayıt, 15 iyun 1999*





## AY DƏDƏ HƏSƏN!

Yurd dərdi qəlbimi yaman göynədir,
Dərdimə dərman tap, ay Dədə Həsən!
Didərgin elimi zaman göynədir,
Yarama məlhəm tap, ay Dədə Həsən!

Təkədondurandan baxmıram Aya,
Təkə, arğalısın tökmürəm çaya,
İndi yad əldədir kəklikli qaya,
Hiddətdən ölürəm, ay Dədə Həsən!

Ata-babamızın qəbri o yerdə,
Ruhları gözləyir bizi o yerdə,
Gərək biz də gedək, ölək o yerdə,
Vətən müqəddəsdir, ay Dədə Həsən!

Kamil ağsaqqalsan, aqil insansan,
Elin dəhanında şəkərsən, balsan,
Yaşın çox olsa da hələ cavansan,
Çək qatarı yurda, ay Dədə Həsən!

Ermənilər tutub doğma torpağı,
Bağ-bağçamın solub yaşıl yarpağı,
Əli Qəmli necə çəksin bu dağı,
Yurdu onsuz qalıb, ay Dədə Həsən!

*Əli Qəmli*
*Bakı, 10 oktyabr 2001*

## ELİN AĞSAQQALI, AY HƏSƏN MƏLLİM!

*Əziz müəllimim Həsən*
*Mirzəyevə müraciət*

Könlüm qalıb aranımda, dağımda,
Elin ağsaqqalı, ay Həsən məllim!
İndi yadlar gəzir bağça-bağımda,
Elin ağsaqqalı, ay Həsən məllim!

Cəfası var, səfası var canımda,
Havası var, dəvası var canımda,
Yurd-yuvamın qovğası var canımda,
Elin ağsaqqalı, ay Həsən məllim!

Qovruluram Vətən adı gələndə,
Odlanıram mənə qaçqın deyəndə,
Yatammıram hay özünü öyəndə,
Elin ağsaqqalı, ay Həsən məllim!

Haqqı-sayımızı erməni dandı,
Ürəyim şaxtadı, ürəyim qandı,
Vətən çırağını barı sən yandı,
Elin ağsaqqalı, ay Həsən məllim!





Mən Əliyəm eldən uzaq gəzmərəm,
Sel də gəlsə eldən iraq gəzmərəm,
Vətənimin hicranına dözmərəm,
Elin ağsaqqalı, ay Həsən məllim!

***Əli Qəmli***
***Bakı, 10 may 2000***



## AY HƏSƏN LƏLƏ

Yadıma düşübdü çəmənim, düzüm,
Həsrətdən ölürəm, ay Həsən lələ!
Şənlikdə oynayıb mən necə süzüm?
Dərddən əriyirəm, ay Həsən lələ!

Pendir lavaşından, per-pencərindən,
Doymamışam yarpızının ətrindən,
Beçənin balından, kəklik ətindən,
Yaman ayrı düşdük, ay Həsən lələ!

Təzəkli yaylağı, Hava meşəsi,
Yastıbulaq ürəyimin nəşəsi,
Dərələzin hər bir yeri, guşəsi,
Bilirsən, cənnətdir, ay Həsən lələ!

Göynədir sinəmi bu nalə, bu ah,
Yurdumda səslənmir indi çarigah,
Düşsə doğma yurda guzarım hərgah,
Torpağın öpəcəm, ay Həsən lələ!

Elin ağsaqqalı, elin Pirisən,
Elin sevimlisi, elin Ərisən,
Elin vuran əli, elin gücüsən,
Dərdimə çarə qıl, ay Həsən lələ!





Qarbaçov pılanı yıxdı evimi,
Tökdü bu çöllərə doğma elimi,
Heydər qurtaracaq dərddən elimi,
Mən buna əminəm, ay Həsən lələ!

Pərən-pərən düşüb, hərə bir yerdə,
Evim dağılıbdı, kənd Qalaserdə,
Əli necə dözsün, dözülməz dərdə,
Şam tək əriyirəm, ay Həsən lələ!

***Əli Qəmli (Dərələyəzli)***
***Xızı-Altıağac, 16 iyul 2000***



## NƏ KÖÇHAKÖÇDÜR?

***Hörmətli müəllimim, mərhəmətli insan, ürəyində həmişə qaçqın, köçgün, yurd dərdini gəzdirən Həsən Mirzəyə***

Həsən Mirzə, bəd xəbərlər alıram,
Deyirlər köç edir İrəvan eli.
Boşalır yurd yeri, evlər-eşiklər,
Qırılır qəlbimin döyünən teli.

Bu nə köçhaköçdür, nə qaçhaqaçdır,
Bu tale oyunu, ya gizlənqaçdı?
O torpaq mənimdi, o yurd mənimdi,
Yersiz gəldi, yerli nə üçün qaçdı?

Nədir bu fəryadlar, nədir bu ahlar?
Dirənib zülm ərşə, tökülür qanlar,
Dövran bizi yaman dərdlərə saldı,
Qalıb yad əlində doğma məzarlar!

O dağlar, o daşlar dil deyib ağlar,
Gələnə, gedənə əl edib ağlar,
Görməz o yığnağı, o gəlhagəli,
Görər bu yerlərdən el köçüb, ağlar





Sən vətən dərdinə qəlbdən yanırsan,
Yanan ocaqlarda gördüm közünü,
Vətən havasıdı, hər kəlmən misran,
Tarixə yazırsan xalqın sözünü.

Həsrəti köksünə sıxıb ağlama,
İnan dönəcəyik, o doğma yurda,
Zaman çox keçsə də, illər keçsə də,
Yenə gedəcəyik o cənnət yurda.

***Fərida Laman***
***Bakı şəhəri, 1988***








## DƏRƏLƏYƏZ
### *poema*

***Dərələyəz mahalının 50 il ağsaqqalı olmuş İbrahim Mirzəli oğluna və onun oğlu, el ağsaqqalı Həsən Mirzəyə ithaf edirəm.***

Həsən Mirzə hər kəlmənin başında,
Oba dedin, oymaq dedin, el dedin.
Vətənsizin heç vaxt olmaz qiyməti,
Dərələzin torpağına ləl dedin.

Vətənini hər bir eldə tanıtdın,
Tərif yazıb saldın onu dastana,
Qəvvas oldun el ümmanı içində.
Səda saldın anam Azərbaycana.

Mən də düşdüm sorağına, izinə,
O dağları qarış-qarış dolaşdım.
Gördüm sənin dediklərin doğrudur,
Nəğmə olub torpağına qarışdım.

Tanrı Dərələzə veribdi qüdrət,
Torpağı möcüzə, havası nemət,
İnsanlar elə bil şair doğulub,

Təpədən dırnağa hikmət, şeriyyət.
Torpağa gül-çiçək min bəzək vurub,
Elə bil xalçadı, xalı sərilib.
Qonşu qonşusuynan çox mehribandı,
Bu elin istəyi haqdan verilib.
Qonşunun bağına bir daş atanı,
Dərhal daşa basar, daşa çəkərlər,
Yaxşı tanıyırlar aqil adamı,
Məclisdə yer verib başa çəkərlər.
Burda ad qazanıb hər kəsin özü,
Yaltağın, alçağın ötməyib sözü.
Burda yalan sözə düz deyilməyib,
İsmətsiz gözələ qız deyilməyib.
Yananı, qananı el özü seçib,
Çör-çöpün qoruna köz deyilməyib.
Burda hörməti var şerin, sənətin,
Tarixi uyuyur bir məmləkətin.
Baba yadigarı hər qaya, hər daş,
Dərələzi heç vaxt unutmaq olmaz.

Göyü hikmətlidir, yeri sərvətli,
Nəğmədir, şeirdir el, Dərələzdə.
Tarixi qiymətli, sirri qiymətli,
Hələ açılmayıb bil, Dərələzdə.





Yağışı leysandı, dumanı qatı,
Burda hər igidin köhləndi atı,
Dərmandı havası, bal, qaymaq qatı,
Çiçək Dərələzdə, gül Dərələzdə.

Salsalın qalası, uca Vers dağı,
Qəndbölən çalası, Nəbi sorağı.
Cənnət misallıdı bağçası, bağı,
Sonalar məskəni göl, Dərələzdə.

«Cəlili» üstündə Cəlil havası,
Məclisi məst edib şirin laylası,
Aşıq Qəhrəmanın nitqi, nidası,
Ötüb pərdə-pərdə tel, Dərələzdə.

Vətənin sevgisi cana hopubdu,
İliyə işdiyib, qana hopubdu,
Qəlbimizə yana-yana hopubdu,
Möcüzədi çəmən-çöl, Dərələzdə.

Yerli-yerindədi elin adəti,
Qonağın hörməti, mərdin qiyməti,
Sözünün ağası, qərarı qəti,
Doğrunu danışan dil, Dərələzdə.

Qız, gəlinlər bala qatar qaymağı,
Qalaylı tavada çalar quymağı,
Cılğıda pendiri, sərnicdə yağı,
Qalmaq istəyirsən qal, Dərələzdə.

Gözəl bir xalıdı toxuyub fələk,
Yamanı tapılmaz et ələk-vələk,
Səhər sərin-sərin əsəndə külək,
Könül istər qala il, Dərələzdə.

Tanrının payıdır dövləti-varı,
Hər gül yarpağına qonur bir arı,
Yaz başı əriyər dağların qarı,
Sığmaz dərələrə sel, Dərələzdə.

Seçər bir-birindən yaxını, yadı,
Müqəddəs saxlayır el təmiz adı,
Buğdanın çörəyi, lavaşın dadı,
Bal olar dostunla böl, Dərələzdə.

Qara naxır Soğanlıda dolanmır,
Axan sular ağ sürüdən bulanmır,
Yurd yerinin od-ocağı qalanmır,
Pərən-pərən olub el, Dərələzdə.





Qərib bilər qürbət diyar necədi,
Qəriblərə gündüzlər də gecədi.
Qəriblərin ağlar gözü yaş olar,
Baş qoyduğu tük yasdığı daş olar.

Layiqdi Vətənə verəsən canı,
Vətənsiz neynərəm cümlə cahanı.
Məkkəm mədinəmdi, Kəbə bilirəm,
Başına döndüyüm Azərbaycanı!

Heç kəsi düşməsin elinnən ayrı,
Elsiz nəyə gərək ömür-gün Allah!
Qürbəti neynərəm gülüstan olsa,
İnsana vətəndi iman, din Allah!

Mirzəloğlu Dərələzin
Xoş sadalı sorağıdı.
Düşmənlərə baş əymiyən
Şah vüqarlı Şah dağıdı.

Dərələzin nağılı var…
Ağsaqqalı ahılı var.
Mirzəloğlu — oğulu var
İndi də ondan danışaq,
Ürəkdən, candan danışaq.

Əlli il ağsaqqal olub,
Bu mahala Mirzəloğlu.
Hayları lərzəyə salıb,
Pür kamallı, Mirzəloğlu.

El yolunda qoyubdu can,
Sülh yaradıb, tökməyib qan,
At belində sürüb dövran,
Dağ qartalı, Mirzəloğlu.

Zirvə deyib dağı gəzib,
Bağban olub bağı gəzib,
Öldürməyə yağı gəzib,
Sinə dağlı, Mirzəloğlu.

Ellər verib qiymətini,
Candan sevib millətini,
Tanrı verib fitrətini,
Dərin zəka, Mirzəloğlu.

Zindanlara atılsa da,
Qulac qolu çatılsa da,
Əyilməyib bir an yada,
Deyib sözün, Mirzəloğlu.





Yaltaqlardan uzaq olub,
Haqq yolunda çıraq olub,
Mərdə qıyıb ürəyini,
Yarı bölüb çörəyini.
O mərd igidlərin xası,
El dayağı, el arxası,
Qəlbinin odu sönməzdi,
Ölsə, yolundan dönməzdi.
Açıq olub kərəm əli,
Çiçək açıb xoş əməli.
Tək deyildi Mirzəloğlu,
Öz elindən güc alardı,
Başında el igidləri,
Dığalardan bac alardı.
Vardı Calal Şahbaz oğlu,
Cəsur, igid, dəli-dolu,
Atın yalına yatardı,
Yağıya divan tutardı.
Bu yerlərin şöhrət-şanı,
Vardı ovçu Qəhrəmanı,
Sevimli şakəri vardı,
Quşu gözündən vurardı.
Cul kəndindən Qaçaq Ağa,
Cəngə gircək qaçıb dığa.
Aşıq Həşin, Qan İsmixan
Erməniyə tutub divan.

Usta Mehdi uşaqları,
Düşməni lərzəyə salıb,
Şahbaz oğlu Calal ilə
Çoxlu yağı əsir alıb.
Əlverdinin gülləsindən,
Qurtarmayıb bircə düşmən.
Dağlarda Qaçaq Süleyman,
Haylara verməyib aman.
Kotannıdan Qannı Abbas,
Düşməninə qan ağladıb.
Qaravəngdən Qaçaq Bağır,
Ermənidən qisas alıb.
Silahsıza silah verib,
Qovuşuqlu Əmir Ağa.
Ər igidlər cəngə girib,
Salsaldan[1] tökülüb dığa...
Quran əldə Axund Əli,
Yanında Molla Mirzəli,
Ermənini qovun deyib,
Burunların ovun deyib,
Onlar türkün düşmənidir,
Müsəlmanın qənimidir…

Mirzəloğlu kimi aqil kişilər,
Möcüzə kişilər, nağıl kişilər,

[1] Salsal Dərələyəzdə ən qədim, ən məşhur qalanın adıdır.





Qəlbi dünya boyda ahıl kişilər,
Ağlıynan düşmənə qələbə çalıb.

Qanlar barışdırıb uzaq ellərdə,
Namərd qan tökəndə, qana qan alıb.
Laçın, Kəlbəcərdə, Göyçə, Şərurda,
Könüldən könülə körpülər salıb.

Deməyib: saxlasın başlı başını,
Olub məzlumların qala divarı,
Sevib doğma elin hər qarışını,
El sevgisi olub dövləti-varı.

Əlli il bir elin o ağsaqqalı,
Aqili, cavanı, qocası olub.
Çörəkli, sürfəli mərdlər içində,
Yaxşılar yaxşısı, ucası olub.

Haqsızlıq görəndə alışıb yanıb,
Bəzən özü olub haqqın divanı,
Ürəklərə köçüb qeyrəti, adı,
Mirzəloğlu olub yeri, ünvanı.

Yad eldə də Mirzəloğlu
Elin dərdinə yanardı.
Ağır gündə, çətin gündə
Dərd-sərinə yarayardı.

Min doqquz yüz yirmi birdə,
Nəs aylarda, ağır gündə,
Xalqımın aqil loğmanı,
Qoca Şərqin Nərimanı,
El dərdini bilmək üçün.
El qəmini bölmək üçün
Gəlir Şəmkir mahalına,
Yanır xalqın məlalına.
Səda düşür hər bir yana,
El axışır o meydana.
Çatıb bir an qaşlarını
Nərman dinir yana-yana.
Günü günsüz ötüşənlər,
Yurdundan pərən düşənlər.
Deyin mənə dərdinizi.
Ay qəmdən bağrı bişənlər.
Bu zaman cavan bir oğlan
Bir az qabağa yeridi.
Qaçqınların, köçkünlərin
Dərdini Nərmana dedi.
—İstiyə dözə bilmirik,
Xalq elə bil qəfəsdədi.
Qarınlar ac, əllər qabar,
Qaçqınlar ruhən xəstədi.
Dərmanı yurd-yuvasdır,
Vətəninin havasıdır.





El Sizdən rüsxət istəyir,
Yurdumuza dönək deyir.
Nərman dedi cavan oğlan,
Görürəm çox dilavərsən,
El-obana lap sipərsən.
Sözlərimi söylə elə,
Haylara siz inanmayın!
Şirin dil töksələr belə,
Sayıq olun, aldanmayın!

Nələr çəkdin, nələr gördün.
Nərimanım, Nərimanım!
Üzdü səni vətən dərdi,
Nərimanım, Nərimanım!

Bağlandın ana torpağa,
Döndün yanan bir çırağa.
Oğul verdin dözdün dağa,
Nərimanım, Nərimanım!

Sağalmadı vətən dərdin,
Dərdi dərdə yetən dərdin.
Qara daşda bitən dərdin,
Nərimanım, Nərimanım!

Qoca Şərqin Süleymanı,
Qafqazın İbni Sinanı,

Düşündün böyük Turanı,
Nərimanım, Nərimanım!

Yurdun yenə paralanıb,
Qəlbim yaman yaralanıb,
Buta dağdan aralanıb,
Nərimanım, Nərimanım!

O gündən bu günə el ağsaqalı
Yurda dayaq oldu Mirzəlioğlu.
Harda işıq söndü, qaranlıq düşdü,
Orda mayak oldu Mirzəlioğlu.

Min doqquz yüz otuz beşdə
Sovet sədri işləyirdi.
Böyük-kiçiklər yanında,
El sözünü o deyirdi.
Qanundan möhkəm yapışıb,
Elinə arxa dururdu.
Dildən halal, əldən təmiz,
Ədalətlə iş görürdü.
Yarımasın müxənnəti...
Qoymadılar o işləsin.
Yeri gəlib, yan keçməyək.
Dinləyin bir əhvalatı:
O vaxt rayon milisləri
Aralığı qatmışdılar.





Dəmirtəpə yaylağında
İki nəfər atmışdılar.
Onlar isə adlı-sanlı,
Dəliqanlı ərlər idi.
Qovuşuqlu Usub ilə,
Mahmud Paşa nərlər idi.
Erməninin kor gözləri,
Bu nərləri götürmədi.
Yatan yerdə güllələdi,
Dığa fürsət ötürmədi.
El yığılıb Dülgəryandan,
Meyidləri istəyirdi.
O isə, üstəlik coşub,
Hədə-qorxu da gəlirdi.
Daxili işlər naziri
Özündən müştəbeh halda,
İstəyirdi müti olsun,
Hamı ona bu mahalda.
Mirzəloğlu dözəmmədi,
Bu dığanın ədasına.
Elə bil od vurmuşdular
Onun sinə odasına:
— Sizə kim ixtiyar verib,
Yatan yerdə Ər vurursuz?
Millətçilik mayanızdır,
Türkün gözünü qırırsız.
Siz bir dəstə, onlar iki —

Yatmışdılar, tutaydınız,
Ədalətlə, qanun ilə
Qazamata ataydınız.
Qərəziniz birdir sizin —
Eli burdan qaçırmaqdır.
Öndərləri qırıb, sonra
Qalanları köçürməkdir.
Elə bu vaxt DİN naziri,
Dülgəryan təpindi ona.
Elə bil ki, od vurdular,
Dağ vüqarlı, dağ oğluna,
Qamçısının sapı ilə,
Çəkdi onun yanağına,
Qançır etdi göz altını,
Xına oldu başqa xına.
İşi belə görən kimi,
Gələnlər yaman çaşdılar,
Elin hiddətini görüb,
Atlara minib qaçdılar...
Ölənlərin qırxı günü
DTK, milis toplandı.
O günü «qanun» adından
İbrahim həbsə alındı.
Millətçi tək üçlük ona
Xəlvətcə «qərar» oxudu.
Onu eldən ayırmaqçın
Çox fitnə-felə getdilər.





Axır beş il müddətinə
Sibirə sürgün etdilər...
Məkirli alçaq dığalar
Bəd əməldən doymadılar.
Kişi sürgündən gələndə
Öz elinə qoymadılar.
Gah yaşadı Qarabağda,
Goranboyda, Naxçıvanda.
Əllüçdən sonra qayıtdı,
Qərar tutdu doğma yurdda.
Son mənzili Bakı oldu,
O dünyada Mehdabadda.

Qarabağda bir savaşda,
Bir laçınlı ər ölmüşdü.
Laçınlılar bağışlamır,
Hər vaxt qana qan — deyirdi.
Adlı-sanlı kimlər getdi,
Bircə kəlmə: — «yox» eşitdi,
Qana bais olan nəsil,
«Yox» — sözünü çox eşitdi.
Bir gün Laçından bir nəfər,
Onlara söylədi bunu:
Laçınlılar eşidərlər,
Yalnız Mirzəlioğlunu.
O işə əl qoysa əgər,
Laçınlılar qanı keçər.

Tapdılar o ər kişini,
Apardılar həmin kəndə,
O at ilə çox getmişdi,
Oraya yolu düşəndə.
Kəndə yetişəndə yenə
Mirzəloğlu at istədi:
— Mənə bir köhlən gətirin,
Mənim baxtım at üstədi,
Göy atı mənə yetirin.
Laçınlılar eşitdi ki,
Mirzəloğlu gəlir ora,
Minnətçi tək bir dost kimi.
Pərt oldular bu xəbərə,
Önə çıxdı Fərəc kişi,
Dedi: — Əziz Mirzəloğlu,
Nahaq gördün sən bu işi.
O namərdlər qan töküblər,
Bizə xəyanət ediblər,
Qana qandı məramımız,
Qırılsaq da biz hamımız.
Qoy barışıq istəyənlər,
Bilsinlər ki, ər kişisən,
Ağır gündə, çətin gündə,
Laçına kömək etmisən.
Biz o qanı bağışladıq,
Sənə, bircə sənə, yalnız.
İki qan da bağışlardıq,





Təvəqqəsiz, intahasız.
Bizim eldən Həsənalı
Namus üstə qan tökmüşdü.
Onu saxlamaq işində,
Yaxınlar yaxa çəkmişdi.
Min doqquz yüz otuz üçdə
Qan qardaşım sizə getdi.
Dar ayaqda, çətin gündə,
Öz fikrini izhar etdi.
— Dinlə məni Mirzəloğlu,
Səndəki ada gəlmişəm.
Namus üstə qan tökmüşəm,
Qapına dada gəlmişəm.
Qar yağıb yollar bağlanıb,
Dağlarda qala bilmirəm.
Məni milislər axtarır,
Hər evdə ola bilmirəm.
— Söyləmisən keç içəri,
Sən bu elə xoş gəlmisən.
Yaxşı edib öldürmüsən,
Yolun azan bir ləçəri…
O zamanlar Həsənalı,
Tək sənə pənah apardı.
Qan qardaşım bütöv qışı,
Evinizdə qonaq qaldı.
— Canini gizlədir, — deyə,
Səni neçə satan oldu.

Dəfələrlə çekist gəldi,
Sən onu ələ vermədin,
Çətin anda, çətin gündə,
Elin ümidin qırmadın.
Keşkənd rayon milisini
Sən qapına buraxmadın.
Bütün ətraf rayonlarda
Ər tək qaldı sənin adın,
Bütün orqanlara dedin:
—Bizdə namus müqəddəsdir,
Gəl-gediniz lap əbəsdir.
Mənim evimə gəlməyin,
Qonağımı incitməyin.
Qar əriyib yollar açılan zaman
Atını gətirdin yəhər-yüyənli,
Dedin ki, yaxşı yol, igid, qəhrəman,
Ona toxunmadı bir inli-cinli.
Biz o yaxşılığı unutmamışıq,
Məsləhət bilirsən, olsun barışıq.

Hara getsə Mirzəloğlu,
Dost-tanışı arayardı.
Harda olsa Mirzəloğlu,
Dərdə-sərə yarayardı.

Harda bir qan düşdü, qada gəldisə,
Orda loğman oldu Mirzəlioğlu





Naşı neştər vurdu, yara qanadı,
Dönüb dərman oldu Mirzəlioğlu.

Soyunu yaşadır o öz adında,
Təmizlik, paklıq var əsil-zatında.
Dostun salamını yel qanadında,
Dostuna yetirdi Mirzəlioğlu.

Qapılar açıldı onun üzünə,
El yığıldı ocağına, közünə,
Bil, haram qatmadı çörək-duzuna,
Elə arxa oldu Mirzəlioğlu.

Məclisdə oturdu yuxarı başda,
Ağsaqqal dedilər ən cavan yaşda,
Əməli gül açdı torpaqda, daşda,
Elə bağban oldu Mirzəlioğlu.

Göy atın belində gəzdi mahalı,
Daşdan od qopardı atının nalı,
Başına topladı cavanı, çalı,
Oddan od götürdü Mirzəlioğlu.

Namərdə əmr edib fərman göndərdi,
Yaxşıya can qıyıb, dərman göndərdi,
Yoxsula kəsməkçün qurban göndərdi,
Mətləblər bitirdi Mirzəlioğlu.

Sevinci, kədəri el ilə böldü,
El ilə ağladı, el ilə güldü,
Qəlblərdən dərd - qəmi, ələmi sildi,
Elə Loğman oldu Mirzəlioğlu.

Qurani-Kərimi təbliğ eylərdi,
Hər bir surəsini əzbər söylərdi,
Sözün qüdrətilə karvan əylərdi,
Şirin söhbətliydi Mirzəlioğlu.

Şərqin şeriyyəti dostu, həyanı,
Nizami, Füzuli, Sədi, Xəqani,
Əzbərdən deyərdi o "Gülüstan"ı,
Hikmət sahibiydi Mirzəlioğlu.

Nəsimi, Firdovsi dilində əzbər,
Şərqin tarixindən verərdi xəbər,
Dastanlar söylərdi o sinədəftər,
Böyük ümman idi Mirzəlioğlu.

Ustad meydanında usta dinərdi,
Sazın hikmətinə baş endirərdi,
Haqqa sığınardı, haqqa dönərdi,
Sözün sərrafıydı Mirzəlioğlu.





Bir gün çatdı vida çağı,
Sinələrə çəkdi dağı,
Mirzəloğlu köç eylədi,
Məmməd Aslan belə dedi:
«Dilində Füzuli, Sədi, Ələsgər,
Elin ağsaqqalı bir sinədəftər,
Bu məğrur İbrahim Mirzəlioğlu
Qarışdı torpağa yer oldu gövhər».

«İgid ölər adı qalar»,
Müxənnətin nəyi qalar?
Sınanmış müdrik sözlərdi
Belə söyləyib atalar.
Mirzəloğlu köc eylədi,
Haqqın meyli çaş olmadı.
"Hər aşiqin dövranı var"
Getdiyi yol boş olmadı.
O yollarda Karvan oldu,
Həsən Mirzə Sarvan oldu.
Sadiq Məhəmməd dininə
Düşdü kök-soyun önünə.
Oddan törəyən od oldu,
Əlacsıza imdad oldu.
Ata adını ucaltdı
Şərəfə, mənsəbə çatdı.

Mirzəloğlu simurğ quşu
— Odu keçib övladlara
Qəlbində elin təlaşı
Həsən yanır bu odlara.

Ömür qısa, dünya fani,
Mirzəloğlu indi hanı?
El-obadan gəlir səsi,
Ona yardır haqq dünyası.

Yaşayır şərəfli adı,
Soya sadiq beş övladı.
Yurda bağlı, elə bağlı,
Dinə bağlı, dilə bağlı.

Yurd vüqarı — elin tacı,
Böyüdübdür alim, hacı,
Soyun adı, elin adı,
Şan-şöhrətli beş övladı.

Üç qardaşdır, iki bacı,
Bacılar çəmən turacı,
İksi alim, üçü hacı,
Bunlara böyükdü Həsən.

Əli deyib haqq sözünü,
Eldən alıb od-közünü,





Məğrur tanıdıb özünü,
Ona yol göstərib Həsən.

Musa Məkkə torpağında,
Qurbanı Mina dağında,
Namərd düşmən qabağında,
Mərd durub sınmayıb Həsən.

Nazlı gözəl-göyçək olub,
Züleyxa tər çiçək olub,
Arzuları gerçək olub,
Zirvədən enməyib Həsən.

Ay ariflər mərd oğula,
Gərək deyil ata malı.
Oğul, əgər oğul olsa,
Dolandırar bir mahalı.

Oğul gərək oğul ola,
Hikmət ola, nağıl ola,
Dünya boyda ağıl ola,
Nəyə lazım dünya malı.

Yanmayanın közü olmaz,
Anlamazın sözü olmaz,
El içində üzü olmaz,
Tez qoyub qaçar mahalı.

«Ot kök üstə bitər» — belədir məsəl,
Susmadı bu soyun qıy vuran səsi.
Əlli il atası ağsaqqal oldu,
İndi ağsaqqaldı Həsən Mirzəsi.

O eli sevəndi, el sevir onu,
Duyum o duyumdu, kamal o kamal.
Milli Məclisdə də sözünü deyir,
Həsən Mirzə kimi aqil ağsaqqal.

Alimdir, aqildir, müdrik ağsaqqal,
Sözə, sənətə də bağlıdır düzü.
Mahal başçısıdır atası kimi,
Geniş yola dönüb atanın izi.

Elin arasında bir misal da var,
Su axdığı yerdən bir daha axar.

Dünya özü boyda suala dönüb,
Kişilər mat qalıb, ay Həsən Mirzə!
Dünyaya sığmayır dünyanın dərdi,
Aqillər qocalıb, ay Həsən Mirzə!

Yaxşılar daşdanıb, daşa çəkilir,
Bəzən nadan keçib başa çəkilir,





Qələm kağıza yox, qaşa çəkilir,
Dövran necə olub, ay Həsən Mirzə?

Kimi uçmaq üçün təyyarə alır,
Kimi neynim deyib, qəm suru çalır.
Mərd-igid tükənir, yaxşı azalır,
Yamanlar çoxalır, ay Həsən Mirzə!

Kişilər yayınır arvad şərindən,
Pul üçün boşanır arvad ərindən,
Çoxu bixəbərdir Fərhad, Şirindən,
Sevdadan xərc alır, ay Həsən Mirzə!

Haray eşitməyib hayı qanmayan,
Əlifbeyi bilib, heyi qanmayan,
Tez-tez el qışqırıb eli saymayan,
Gözümdə alçalır, ay Həsən Mirzə!

Gör kimlər dolanır eşqin dağında,
Qarğa qırıldayır gül budağında,
Nadan kama çatır yar qucağında,
Taledən bac alır, ay Həsən Mirzə!

De, kimdən danışım, kimimdən deyim?
Dəryada qərq olan gəmimdən deyim?
Hansı kədərimdən, qəmimdən deyim?
Könlümə güc olur, ay Həsən Mirzə!

Mərd göndər bağlasın qəm bazarımı,
Satsın dəllallara dərd-azarımı,
Gün doğsun əritsin yağan qarımı,
Karvanım köç olub, ay Həsən Mirzə!

Yaxamdan tutubdu hicranın əli,
İnsan divanədi, zəmanə dəli,
Birləşək yurduna qaytaraq eli,
Hamı lüt-ac olub, ay Həsən Mirzə!

Ağlaya-ağlaya gülürəm neynim,
Bağrımı min yerə bölürəm neynim,
Davasız-dərmansız ölürəm neynim,
Baxt mənnən kəc olub, ay Həsən Mirzə!

Aşılmaz barımı aşdı erməni,
Yedi çörəyimi, çaşdı erməni,
Fitnədi, fəsaddı, daşdı erməni,
Düşmənin bic olub, ay Həsən Mirzə!

Tapdayıb çəməni, əzib gülləri,
Dərdə, qəmə salıb doğma elləri,
Bir gün kəsiləcək qanlı əlləri,
O biznən öc olub, ay Həsən Mirzə.





Min bir ağac əksən şoran torpaqda,
Ağaclar bar verib bar ola bilməz.
Bostanı çor vurub, dolu döyübsə,
Gəzmə, şamamalı tağ ola bilməz.

Bir mərdin qəlbinə naşı dəyibsə,
Fələyin atdığı daşı dəyibsə,
Əgər daşdan-daşa başı dəyibsə,
Sorma sən sayrını, sağ ola bilməz.

Olsa yer üzünün şahı, sultanı,
Görmürsə yoxsulu, fağır insanı,
Ay Buta, qəlbində yoxsa vicdanı,
Eldə onun üzü ağ ola bilməz.

***Səadət Buta***
***Bakı, 2001***



# Övlad məhəbbəti, yurd dərdi



## AY HƏSƏN

Doqquz aydır Sizdən məktub almırdım,
Doymuş idim şirin cana, ay Həsən!
Sibir zindanında, qəm diyarında,
Dönmüş idi bağrım qana, ay Həsən!

Əziz oldu bu ay mənə hər aydan,
İyirmi yeddi gün keçmişdi maydan,
Aldım məktubunu fərz oldu qurban,
Gərək çıxam müsəllaya, ay Həsən!

İki məktub Sizdən, biri Amildən,
İksi Süleymandan, biri Bəbirdən,
Altı məktub altısı da bir yerdən,
Gətdilər, verdilər mənə, ay Həsən!

Gəncənin, Bərdənin, həm Qarabağın,
Bəbirin məkanın verən Yujlağın,
Yaxşı-yaman hər qəribə əhvalın,
Məktublar söylədi mənə, ay Həsən!

Vətən torpağından gəlib ərməğan,
Tel tükü, bənövşə dərdimə dərman,
Nərgiz nalə çəkir gözündə leysan,
Ərzi-hal söyləyir mənə, ay Həsən!

Fikr eləmə atan zindanda qalmaz
Elin qisasını düşməndə qoymaz,
Mirzəloğlu heç vaxt övladdan doy  ız,
Qayıdıb gələrəm qorxma, ay Həsə

***İbrahim Mir əli oğlu***
***Sibir, 28 may 1938***







## BƏNÖVŞƏ

Doğma torpağımdan, doğma elimdən,
Ərməğan gəlmisən mənə, bənövşə.
Övlad həsrətimə, Vətən dərdimə,
Sən dərman gəlmisən mənə, bənövşə.

Bənövşə dillənmir, yalvar nərgizə,
Tel tükü göndərib nişanə bizə,
Allah ömür versin o bir cüt qıza,
Göndəribdi səni mənə, bənövşə.

Xınalı kəkliklər daşda səkirmi?
Dağ erkəci sürüsünü çəkirmi?
Şeyda bülbül bağ-baxçada ötürmü?
Bircə-bircə söylə mənə, bənövşə.

***İbrahim Mirzəli oğlu***
***Sibir, 28 may 1938***

## QONAQ GƏL İLYAS

Vətən dərələyəz səni gözləyir,
Öz doğma yurduna qonaq gəl, İlyas.
Lalə-nərgiz, çol - çəməni bəzəyir,
Bu cənnət məkana qonaq gəl, İlyas.

Yamyaşıldır, gül-çiçəkdir yaylaqlar,
Göz oxşayır, at sürdüyün oylaqlar,
Suyu keybir, şır-şır axan bulaqlar,
Yolunu gözləyir, qonaq gəl, İlyas.

Demə, Dərələyəz uzaq səfərdi,
Vəkilovlar adı eldə əzbərdi,
Fikirləşmə, qonaq neçə nəfərdi,
Bütün nəsillikcə qonaq gəl, İlyas

Vətənə gəl, getmə bizdən uzağa,
Məcnun kimi bizi salma sorağa,
Həsəni də gətir Yastıbulağa,
El-oba istəyir, qonaq gəl, İlyas.

Sən gələndə elə yayılır ətir,
Bil ki, həsrətini vilayət çəkir,
Gələndə özünlə qənd-çayın gətir,
Bu minvalla bizə qonaq gəl, İlyas.





Həmid qardaşımdır, Raya qızımdır,
Sultan ümidimdir, iki gözümdür,
Mirzəloğlu deyir axır sözümdür,
Onlarla bərabər qonaq gəl, İlyas.

*İbrahim Mirzəli oğlu*
*15 aprel 1964*



# Bəzi şerlərin yaranması haqqında müəllifin qeydləri



## «DƏRƏLƏYƏZDƏ»

**deyişməsi**

1995-ci ilin yanvarında Aşıq Mehdi mən işləyən universitetə gəlmişdi. Onunla Dərələyəz haqqında çox söhbətlərimiz oldu. Mən ona dedim ki, ermənilər Dərələyəzdə olan kəndlərin adını dəyişir və bu yer-yurd adlarını tarixdən silmək istəyirlər. Sən bu kəndləri nəzmə çək, mən də bu tarixi adlarımızı elmi cəhətdən şərh edim.Bu bizim Dərələyəz torpağına, Dərələyəz elinə ən yaxşı xidmətimiz olar.

Biz Dərələyəzdə olan kəndlərin adını bir-bir yada salıb qeyd etdik. Mehdi bu kəndlərin hamısını yaxşı tanıyırdı... 2—3 aydan sonra Mehdi mənim yanıma gəldi və «Dərələyəzdə» rədifli qoşmalarını mənə oxudu. Bu qoşmada bə'zi kəndlər öz əksini tapmamışdı. Mən ondan xahiş etdim ki, bu kəndləri də qələmə alsın. O əlavə 4 bənd də yazdı və bu kəndlərin adı da şe'rdə öz əksini tapdı.

Aşıq Mehdi öz şairlik istedadı ilə Dərələyəzdəki kəndləri çox yaxşı tərənnüm etmişdi. Mən Mehdiyə dedim ki, kəndlərin tərənümü çox yaxşıdır. Lakin Dərələyəzin tarixi, burada baş verən tarixi hadisələr, bu elin adət-ənənələri, coğrafi mühiti, tanınmış adamlarını da qısa şəkildə nəzmə çəkmək vacibdir. Bu yük ikimizin boynuna

*düşür. Xahiş edirəm bunları da nəzmə çək. Bi: bunları yazmasaq gələcək nəsil bizi bağışlamaz.*

*Bundan sonra Mehdi xeyli xəstə oldu və dedi ki, yaza bilmirəm. Mən məcburiyyət qarşısında qalıb bu məsələləri qələmə alıb Mehdinin yanına getdim və həmin rədifdə qoşmanı ona verdim. O, Bakıda yaşayan qızının evində idi. Ona dedim ki, bunlar da həmin rədifdədir, bax düzəlt və bunları da əvvəlcə yazdığına əlavə et. Sabahı gün o universitetə gəldi və qoşmanı mənə qaytarıb dedi: «Mən bu 23 bənd qoşmada cəmi iki sözün yerini dəyişdim. Sən məndən də yaxşı yazmısan. Gəl bunları deyişmə şəklində verək. Mən kəndləri, sən də digər məsələləri tərənnüm edirsən. Mən yazdığım 3 bəndini götürdüm və bu deyişmə şəklində qaldı. «Dərələyəzdə» rədifli qoşmalar belə yarandı.*





## «DƏRDİMİ»

**qoşması**

*1998-ci il iyun ayının 15-i idi. Öz yurd-yuvasından qaçqın düşmüş «Dərələyəz» camaatının böyük bir dəstəsi ilə Xızıya (Altıağaca) getmişdik. Cənnət Dərələyəzin təbiətinə bir qədər oxşayan Altıağacda Dərələyəz günü keçirmək, Dərələyəzi yad etmək istəyirdik. Dərələyəz ağsaqqalları və ziyalılarının tövsiyyəsi və mənim rəhbərliyim ilə 4—5 ildir ki, bu tədbir keçirilir (Xızıda, Xaçmazda, Pirquluda). Məqsəd odur ki, yeni nəsil, gənclərimiz doğma yurdu, Qərbi Azərbaycanda baş vermiş tarixi hadisələri, ermənilərin törətdiyi qanlı cinayətləri, soyqırımlarını, deportasiyaları unutmasınlar. Bizimlə birlikdə bu tədbirə xeyli aşıq və digər musiqiçilər də getmişdi. Aztevenin çəkiliş qrupu Dərələyəz haqqında gedən bu söhbətləri, oranın adət-ənənəsinə, mədəniyyətinə, musiqisinə, folkloruna, tarixi hadisələrinə aid deyilənləri bir-bir lentə alırdı. Günorta yeməyinə oturmuşduq. Mən aşıq Ulduza dedim ki, Ulduz xanım. Türkiyənin şairi və aşığı Murad Çobanoğlu ilə Sizin «Dərdimi» rədifli bir deyişməniz vardır. Xahiş edirəm ki, onu oxuyasınız.*

*Aşıq Ulduz mənə cavab verdi ki, ay Həsən müəllim sənin nə dərdin var? Sən bu qoşmanı dinləmək istəyirsən. Cavabım belə oldu: Aşıq Ulduz sənin dərdin mənimki qə -*

dər olmaz. Görürsənmi bu qədər adam Vətən də i, yurd həsrəti ilə bağlı bura toplanmışdır. Açığını deyim ki, Ulduzun sözü mənə bir qədər toxundu. Dərhal qələm əli mə alıb cib dəftərimdə birinci bəndi yazdım. Sonra da evə gələnə kimi 4—5 bəndini yazdım. Hamısını tamamladıqdan sonra qoşmanı verdim Ulduz xanıma və dedim ki, oxuyanda hər üçünü də oxuyun. O da həmişə «Quba Kərəmisi», «Zarıncı» üstündə bu qoşmanı oxuyur. «Dərdimi» rədifli qoşmasının yazılma tarixi belə olmuşdur.





## «DAĞLAR»

**gəraylısı**

1999-cu il mart ayının 21-də Milli Məclisin 10 nəfər deputatı və xeyli miqdarda mədəniyyət işçiləri xüsusi təyyarə ilə Naxçıvana getdik. Məqsəd o idi ki, Naxçıvanda «Novruz bayramı» günü münasibətilə keçirilən şənliklərdə biz də iştirak edək. Həmin gün biz səhər tezdən təyyarə ilə Naxçıvana getdik və bahar bayramı şənliklərində fəal iştirak etdik. Hətta mən Şərurdan gələn yallı ansamblı ilə «Tənzərə» yallısı da getdim. Özü də yallı dəstəsinin başından tutmuşdum (Bunların hamısı televiziya ilə verildi). Nehrəm kəndində təşkil olunan şənliklərdə də iştirak etdik.

Nəhayət, axşam çağı həmin təyyarə ilə Bakıya qayıdırdıq. Təyyarə Bakıdan Naxçıvana gedəndə səma çox buludlu idi, yeri yaxşı görmək olmurdu. Lakin geri qayıdanda səma çox şəffaf idi. səmadan dağlar, yaylaqlar, yurdlar, kəndlər, qəsəbələr, yollar, çaylar, bağ-bağçalar, qayalar, çəmənliklər və s. çox aydın görünürdü. Səmadan düşmən əlində qalan Dərələyəzi, Göyçəni, Vedini, doğulub boya-başa çatdığım, ana laylasına qulaq asdığım yerləri, atla, maşınla, piyada qarış-qarış gəzdiyim dağları, yurdları, çəmənlikləri, düzləri, meşələri seyr etmək istəyirdim. Səma çox şəffaf olduğu üçün təyyarə lap

*alçaqdan uçurdu. Səmadan bu yerləri görəndə uşaq lıq və gənclik illərim yadıma düşdü. Buralarda olan el şənlikləri, Göyçə göldən qalxan dumanın Soğanlı yaylağında Göytəpənin döşündə sürünməsi, qoyun-quzu sürülərinin yanında çobanların tütək çalması, səhər-səhər şehli çəmənlərdə gəzdiyim, qar altından təzəcə çıxan yarpızları yığdığım, quzuqulaqlarını yığıb duzla ovduğum və s. bir anlığa gözümün önündən keçdi. Yaylaqlarda, yurdlarda doğma el-obamın olmaması mənə çox pis təsir etdi. Özümdən asılı olmayaraq xeyli kövrəldim... Bu zaman kağız-qələm götürüb «Dağlar» şe'rini yazdım. Göyçə gölünün üstündən keçəndə artıq birinci, ikinci və axırıncı bəndi tamamlamışdım. Sanki söz öz-özünə gəlirdi... «Dağlar» qoşmasının yazılma tarixi belə oldu.*





## «TƏBRİZ»

**müxəmməsi**

*1998-ci ilin dekabrı idi. Biz Milli Məclisin 10 deputatı və xeyli əməkdaşı ilə İrana getmişdik. Nüma yəndə he'yətinə Milli Məclisin sədri Murtuz Ələsgərov başçılıq edirdi. Biz on günə 21—30 dekabr arasında İranda olmalı və dostluq əlaqələrini möhkəmləndirmək üçün xeyli görüşlər keçirməli, dövlət başçıları, rəhbər işçilər, görkəmli adamlarla görüşməli idik. Bu məqsədlə biz İranın böyük şəhərlərində, müqəddəs yerlərində (o cümlədən Məşhəddə) olduq və bu missiyanı yüksək səviyyədə yeri nə yetirdik. Xorasanda olarkən biz İmam Rzanın məza rını da ziyarət etdik və bizim Məşədi olmağımıza dair şəhadətnamə də verdilər. Səfərin axırıncı üç günü Təb rizdə və Təbriz vilayətlərində olduq. Başqa yerlərdə olduğu kimi burada da bizi böyük hərarətlə, mehribanlıqla qarşıladılar. Biz çox yerlərə, o cümlədən Təbriz Universitetinə, Şəhriyarın məzarına, ev muzeyinə, Ellər gölünə («Şah gölünə») və s. getdik. Təbrizdə axırıncı gün qaldığımız mehmanxanada Təbriz şairləri ilə bizim görüşümüzü təşkil etdilər. Əvvəlcədən dedilər ki, bu görüşdə Təbriz aşıqları da çıxış edəcəkdir. Görüş başlananda məlum oldu ki, orucluq olduğu üçün aşıqların gəlməsi məsləhət görülməyib. Mən aşıqpərəst olduğum üçün qanım*

bərk qaraldı. Nəhayət, görüş başladı. Təbriz şairlərinin, söz ustalarının əksəriyyəti burada idi. Bizim nümayəndələrin içərisində cəmi iki nəfər şair var idi (Cabir Novruz və Musa Yaqub). Onlar çox olduğu üçün müxtəlif səpgidə şe'r oxuyurdular. Mən vəziyyəti belə görəndə Murtuz müəllimə dedim ki, icazə verin mən də S.Rüstəmin «Təbrizim» şe'rini deyim. Murtuz müəllim təklifimi razılıqla qarşıladı və dedi ki, hamısını desən çox çəkər, 3—4 bəndini məclisin axırında deyərsən. Mən fikirləşdim ki, S.Rüstəmin şe'rini deyib qurtardıqdan sonra bir bənd də özümdən şe'r desəm daha yaxşı olar. Bu məqsədlə qələmi götürüb bunu yazmaq istədim.

Yanımda oturan deputatlar dedilər ki, yaxşı bilmirsənsə çıxış eləmə. Mən cavab verdim ki, siz narahat olmayın... Mən burada «Təbriz» rədifli şe'rimin 4 bəndini yazdım. Lakin kitabda verilən birinci, ikinci, və axırıncı bəndlərini əzbərləyə bildim. Məclisin sonunda mən S.Rüstəmin «Təbrizim» şe'rinin 5 bəndini əzbər dedim. Məclis bunu çox yaxşı qarşıladı. Bundan sonra oturanlara dedim ki, mən şair deyiləm. Lakin Təbrizi birinci dəfədir görürəm. Ona bir-iki ürək sözüm var, onu da dinləməyinizi xahiş edirəm. Yoldaşlarım çox narahatçılıq keçirdi. Lakin mən yazdığım şe'rin 3 bəndini deyəndən sonra sevinə-sevinə məni təbrik etdilər. Bu şe'r belə yarandı.





## "QALDI" — "QALMAZ"

**qoşmaları**

1994-cü il yazın əvvəlləri idi. Aşıq Mehdi Tərtərdən Bakıya, mənim yanıma gəlmişdi. O, həddindən artıq pərişan idi. Mən bunun səbəbini soruşduqda o dedi: Həsən müəllim! 1949-cu ildən 1988-ci ilə kimi hər yay doğulub boya-başa çatdığım Dərələyəzin yaylaqlarına getmiş, oranın havasını udub ətrini qoxlamışam. Lakin 6 ildir ki, o yerlərin üzünə həsrət qalmışam. Ora üçün burnumun ucu göynəyir. Bununla bağlı bir qoşma da yazmışam. İstəyirəm onu sənə oxuyam. O, qoşmanı oxuyanda mən də çox pərişan oldum və ona dedim ki, Mehdi nə üçün mənim doğma kəndimə məxsus məşhur yaylaqları, dağları qələmə almamısan. Bu zaman bədahətən dedim: «Soğanlı, Vers dağı, Təkədonduran, ətəyi bənövşə başı çən, duman». Sonunu düzəltmək üçün Mehdi mənə macal vermədi. O da bədahətən dedi: «Göydağın yaylağı, Qızyetərqaçan Surenə, Vahrama, Qiqoya qaldı». Sonra mən ona dedim ki, Mehdi qoşman yaxşıdı, lakin bir qədər ümidsizlik vardır. Birini də «Qalmaz» rədifi ilə yazsan yaxşı olar. O, mənə cavab verdi ki, onu da sən yaz və bunlar deyişmə şəklində yadigar qalsın. Mən ona dedim ki, axı mən şair deyiləm. Gülə-gülə mənə cavab verdi ki, aşıqlara sataşanda söz tapırsan, bir qoşmanı yazmağa söz tapmırsan? Bu sözdən sonra mən "Qalmaz" rədifli qoşmanı yazdım. Qoşmanın yaranma tarixi belə oldu.

## «AY HƏSƏN MİRZƏ» — «BUTA»

**deyişməsi**

*2000-ci il aprelin doqquzu idi. Aşıq Telli axş m çağı mənə zəng vurdu ki, Həsən müəllim sabah iş yerində (universitetdə) olacaqsınızmı? Mən cavab verdim ki, bəli olacağam, xeyirdirmi? O gülə-gülə dedi ki, xeyirdi. Şair Səadət Buta sənin yanına gəlmək istəyir. Sən özünün «Dərdimi» rədifli şe'rində bir neçə şairlə (Zəlimxan, Sücaət, Bəhmən, Alqayıtla) yanaşı ona da müraciət etmiş və onun da vətən dərdi haqqında yazmağını xahiş etmisən. İndi o sizə sürpriz hazırlayıbdır. Sizi tanımadığı üçün məndən xahiş etdi ki, onu Sizin yanınıza gətirim. Mən cavab verdim ki, sabah saat 10-dan 3-ə qədər universitetdə (kafedrada) olacağam. Nə vaxt istəyirsinizsə gələ bilərsiniz. Hiss elədim ki, o mütləq şe'rlə gələcəkdir. Mən səhər tezdən yuxudan duran kimi qələmi götürüb Butanın necə şair olduğunu, vətən torpağını necə vəsf etdiyini yazmaq istədim. Qaralama şəklində olan bu 5 bənd qoşmanı götürüb universitetə gəldim və onu makinada yazdırdım. Buta Telli Borçalı ilə gəlib çıxdı və Buta mənə müraciətlə yazdığı «Ay Həsən Mirzə» rədifli qoşmasını oxudu. Mən də yazdığım qoşmanı Butaya oxudum. Bu deyişmə belə yarandı.*





## "GƏLMİŞƏM"

**müxəmməsi**

*Qohumlarımızla Naxçıvana hüzr yerinə getmişdim. Hüzr qurtarandan sonra qohum-qardaşa dedim ki, mənim bir neçə getməli yerim var. Mən istəyirəm ki, "Əsha bi-Kəhf"i ziyarət edim, Naxçıvanda olan dost - tanışlarla görüşüm, anamın qəbrini ziyarət edim, mümkün olsa Batabata çıxıb oradan viran qalmış yurdumu – Dərələyəzi seyr edim, onun mehlə gələn ətrini udum. Bunların bəzisinə getmək mümkün oldu, bəzisinə isə üzürlü səbəbə görə gedə bilmədik...*

*Maşın Naxçıvandan çıxıb "Əshabi-Kəhf"ə tərəf irəliləyirdi. Bacıoğlu Vəli və mən bir maşında oturmuşduq. Maşında xəyala dalmışdım. Gəncliyimin bir his səsini keçirdiyim Naxıçıvan, onun tarixi abidələri, dağları kino lenti kimi gözümün önündən gəlib keçirdi. Bu zaman bacım oğlu mənə dedi ki, niyə pərişansan? Mən cavab verdim ki, pərişan deyiləm, sadəcə olaraq keçmiş anlar yadıma düşübdür. Bu zaman qələmi götürüb maşın gedə-gedə "Gəlmişəm" rədifli bu şeri yazmağa başladım. Artıq maşın "Əshabi-kəhf"ə çatmışdı. Mən maşından düşüb qayaların üzərindən salınmış əsrarəngiz pilləkənlərlə ocağın lap axırıncı nöqtəsinə çıxdım. Bir qədər dincəldikdən sonra düşüb geri qayıtdım, maşina hamıdan tez oturub yazdığım şerin üzünü ağartdım və qohumlarıma oxudum. "Gəlmişəm" müxəmməsinin yaranma tarixi belə oldu.*

## «BELƏSİNƏ»

gəraylısı

*İki-üç il bundan öncə Aşıq Ələsgərin Abşeron rayonunda yubileyi keçirilirdi. Yubiley mərasimi qurtar dıqdan sonra yubileyə gələn bir qrup adamı, o cümlədən Zəlimxan Yaqubu, məni, aşıqlar dəstəsini Sumqayıt yolunun üstündəki «Nəqşi-Cahan» restoranına dəvət etdilər.*

*Buradakı aşıqlar və məclisdə olanlar Ələsgərdən söz açdılar. Sonra da oyun havası çalındı və hamı oynadı. Telli Borçalı ilə mən daha çox oynadıq. Telli Borçalı hamını yordu. Zəlimxan Yaqub burada ona bir şe'r yazdı. Mən Zəlimxana zarafatla dedim ki, şe'ri dastana çevir. Sən «Zamanın dastanı»nı yaz və orada da bir xətt Telli ilə sənin sözlərin, deyişmələrin olsun... Bun dan sonrakı dövrlərdə də mən Zəlimxana deyirdim ki, aşıq poeziya sını, sazı, sözü, onun hikmətini dünyada səndən yaxşı bilən ikinci adam tanımıram. Sən indiki dövrümüzün dastanını mütləq yazmalısan. Sənin yazı ların hazırdır. Bunu yalnız dastan şəklinə salmaq lazımdır. Həm Zəlimxan, həm də Telli Borçalı mənə həddindən artıq hörmət edən adamlardır. Ona görə də mənim sözümdən və zarafatımdan incimirlər. Mən Zəlimxana dedim ki, beləsinə şe'r də, dastan da halaldır. Zəlimxan Yaqubun «Zamanın dastanı»nı tez yazması üçün zarafatla «Beləsinə» rədifli qoşmasını yazdım. Hər ikisi bu qoşmanı çox səmimi və dost sözü kimi qəbul etdilər.*





## «TAPIN GƏTİRİN»

qoşması

## və «BU GÖZƏLƏ»

gəraylısı

*3 yaxın dost və müsahibimlə oturub çay içir dik. Bir nəfər qapını açdı və həyəcanlı şəkildə tez də qapını örtdü. Mən onu tanıyırdım. Çox abırlı, həyalı və ismətli qız idi. Əsil Azərbaycan gözəli idi.*

*Bir azdan sonra bir də qapını açdı və mənə kimdənsə şikayət etmək istəyirdi. Nədənsə içəri girmədi və qapını örtüb getdi.*

*Yanımdakılar dedi ki, dur gör o nə deyir. Mən aya ğa durmadım və işçilərə dedim ki, onu tapın gətirin görək dərdi nədir, nə deyir? İşçilər onu axtarıb tapma dılar. Dostumun biri dedi ki, niyə rəssamlar Azərbay canın belə gözəllərini çəkmir? O biri dostum da mənə sataşıb dedi ki, deyirsən şairəm, bəs belə gözələ niyə bir şe'r yazmırsan?*

*Mən də onda olan gözəllikləri və onun daxili aləmini qələmə almağa çalışdım və qoşmanın 4 bəndini onların yanında, qalanlarını isə onlar gedəndən sonra yazdım. Bu qoşmaların yaranma tarixi belə oldu.*

## "CEYRAN"

**müxəmməsi**

*Şerin yaranma tarixi aşağıdakı kimidir:*

*Televiziya ekranı qarşısında oturub AzTV-nin birinci proqramına baxırdım. Gördüm ki, Ceyran adlı bir xanım ortada əyləşib sağında və solunda qoşa oturan muğənnilərə deyir ki, biriniz masa üzərindəki konvertlərdən birinin nömrəsini deyin. Onlar nömrəni deyəndən sonra aparıcı Ceyran xanım konverti götürüb açır və içərisindəki suallara uyğun mahnı oxumağı tələb edirdi. Hər iki tərəfdəki müğənnilər bu suala uyğun mahnılar oxuyur və sanki bunlar bir-birləri ilə yarışırdılar. Mən birinci dəfə idi ki, səhnədə konsertin bu formada getdiyini görürdüm. Bu konsert və bundan sonra verilənlər mənim çox xoşuma gəldi. Xoşuma gələn cəhətlər, əsasən, aşağıdakılar oldu:*

*1.Verilişə ən istedadlı, gözəl səsli, milli ruhlu, xalqın sevdiyi müğənnilər dəvət olunur.*

*2. Oxunucaq mahnılar, verilən suallar əvvəlcədən muğənniyə məlum olmur. Ona görə də yarışdan qalib çıxmaq üçün müğəninin yaxşı hazırlığı, savadı və yaddaşı olmalıdır. Müğənni burada həm mahnıya musiqi bəsləyəni, həm də mahnının sözlərini yazan şəxsi bilməlidir. Bu mənzərə bir növ musiqi təhsil ocaqlarını xatırladır. Azərbaycanda ekran qarşısında əyləşən yüzlərlə*





*tamaşaçılar, müğənnilər, musiqi sevənlər bu deyilənləri həm yada salır, həm də öyrənir. Ona görə də bu veriliş bir məktəb rolunu oynayır.*

*3. Qoşa oturan müğənnilərin biri kişi, digəri isə qadın olur. Bunlardan ikisi aparıcının sağında, ikisi isə solunda oturur və bir-birlərini çox nəzakətlə, hörmətlə, gülər üzlə dindirirlər. Hətta oxuyanda qalib tərəf məğlub tərəfə hiss edilmədən kömək edir. Aparıcı da həm qalib tərəfi, həm də məğlub tərəfi gülər üzlə qarşılayır.*

*4.Müğənnilər də, aparıcı da, məclisdə əyləşənlər də ekranın tələbinə, ekran mədəniyyətinə, xalqın milli ruhuna uyğun şəkildə geyinir və səliqə-sahmana riayət edirlər. Sanki Azərbaycan qızlarımız bir növ dünyaya bəyan edirlər ki, Azərbaycanda olan gözəllər planetin heç bir guşəsində yoxdur. Azərbaycanlıların daxili aləmi gözəl olduğu kimi (safqəlbi, təmiz, xeyirxah, insanpərvər...), xarici görkəmi də gözəldir. Bu da Allahın Azərbaycan xalqına, onun oğlan və qızlarına verdiyi nemətlərdən biridir.*

*Mən bunları nəzərə alıb bütün müğənnilərin, musiqisevərlərin, söz xiridarlarının, milli ruhlu gənclərimizin, yaxşı aparıcıların timsalında şəxsən tanımadığım, lakin qabiliyyətli bir aparıcı kimi hüsn-rəğbət bəslədiyim Ceyran xanım haqqında üç bənd şer yazdım. Güman edirəm ki, Azərbaycan xalqının gözəl, adət-ənənələrini sevən saf niyyətli şəxslər məni qınamazlar.*

*Yeri gəlmişkən deməliyəm ki, mən bu verilişə baxanda bir məsələyə çox təəssüflənirəm. Nə üçün 1300 il bundan əvvəl Dədəm Qorqudun sinəsində gəzən qopuzla, sazla, onun ifaçısı aşıqla, əsrləri yara-yara gələn qara zurna ilə və digər çalğı alətləri və onların ifaçıları ilə bağlı belə verilişlər aparılmır...*





## OLARMI?

*qoşması*

*Mən aşıq sənətini çox sevirəm. Gözümü açandan aşıq səsini eşitmiş, saza qulaq asmışam. Ona görə də mən həmişə maşınımda aşıq kasetləri saxlayır və yorğun, əsəbi, pərişan vaxtlarımda bu kasetlərdə aşıqların oxuduğu qoşma, gəraylı, müxəmməslərə, dastanlara, saz havalarına qulaq asıram.*

*Bir gün maşında oturub ustad aşıq Ədalətin kasetinə qulaq asırdım Ədalət Bəhmən Vətənoğlunun "Qartal" o zirvədən belə düş, belə, İnsanam zirvədə mən olmalıyam..." qoşmasını oxuyurdu. Ədalət bu qoşmanı çox pəstən və çox da məlahətli oxudu. Bundan sonra tanımadığım bir aşıq "Ağır şərili" havası üstündə "Olarmı" rədifli bir qoşma oxudu. Bu aşığın oxuması da, qoşma da mənim çox xoşuma gəldi... Bu aşığın kim olduğu və "Olarmı" qoşmasını kimin yazdığı məni maraqlandırdı. Mən bunu Zəlimxan Yaqubdan soruşdum. O, mənə dedi ki, sözlər ya aşıq Nəcəfin ya da Osman qağanındır. Aşıq da çox güman ki, Gədəbəy aşığıdır.*

*"Olarmı" rədifli qoşmasının həm sözləri, həm də onun oxunması mənə xüsusi təsir bağışladığı üçün bu rədifdə mən də bir qoşma yazmaq qərarına gəldim və bu qoşmanı yazdım. Mən də istəyirəm ki, bu qoşmanı həmin havada oxusunlar. "Olarmı" rədifli bu qoşmanın yaranması belə oldu.*

## NƏ OLAR?!

qoşması

Bakı şəhərində böyük bir tədbir keçirilirdi. Mən də öz dostlarım və həmkarlarımla bu tədbirdə iştirak edirdim. Üç nəfər yaxın dostumla ayaq üstə dayan mışdıq. Bu zaman çox səliqə ilə geyinmiş bir cavan qadın öz rəfiqəsi ilə gəlib bizimlə qarşı-qarşıya dayandı. Bunlar gələndən sonra zalda sanki bir oyanma başladı. Tədbirdə iştirak edən qadınlar da, kişilər də bu dünya gözəlinə baxırdı. Hiss olunurdu ki, bu çox yüksk mədəniyyətli, zövqlü, təmkinli bir adamdır. Hətta tədbirdə olanların bir çoxu məruzəçiyə yox, buna baxırdı. Cavan dostlarımdan biri üzünü mənə tutub dedi ki, Həsən Mirzə buna bir şer yaz. Amma diqqətlə bax ki, gözəlliyini olduğu kimi yaza biləsən. Mən buna cavab verdim ki, mən o qüdrətin sahibi deyiləm. Belə gözəli tərənnüm etmək mənim üçün çətindir. Bunu yalnız Zəlimxan kimi söz xiridarı vəsf edə bilər. Dostum Zəlimxanı tapa bilmədi. Bu zaman o biri dostlarım mənə təkidlə dedilər ki, heç olmasa bir-iki bənd bacardığını yaz. Mən elə oradaca ayaq üstə bu şerin birinci və ikinci bəndini qaralayıb dostlarıma oxudum. İki bəndini isə bir qədər sonra yazıb tamamladım və dostuma dedim ki, bunu sənin dilindən yazıram... Şer zalda yazdığım kimi də qaldı və onu cilalaya bilmədim. Şer belə yarandı.





## NƏVƏLƏRİM

şeri

6 noyabr 2001-ci ildə, təxminən axşam saat 9-da oğlanlarım, qızlarım və nəvələrim mənim yanımda idilər. Mən bu şer kitabının kompyuterdən çıxan hissəsini oxuyurdum. Nəvələrimin ən kiçiyi qızdır və bu gün onun 6 ayı tamam olurdu. Mən bunu qucağıma alıb oynadır və ona oxşamalar deyirdim. Bu zaman kiçik oğlum zarafatla dedi ki, ata bu oxşamaları elə şer şəklinə salsan yaxşı olmazmı? Hərə bir tərəfdən oğlumun fikrini müdafiə etdi.

Bu anda o biri kiçik qız nəvəm (o 5 yaşındadır) mənə yaxınlaşıb atıla-atıla deyirdi: Baba mənə də şer yaz, mənə də şer yaz! O biri qız nəvəm isə dərs oxuduğu üçün yanımda yox idi. Bu zaman mən nəvələrimə dedim: Oğlan nəvəlaim hələlik gözləsinlər. Onlar haqqında nəsihətlərim, məsləhətlərim bir qədər geniş olacaq. İndi mən elə bu saat qız nəvələrimə ürək sözlərimi deyəcəyəm. Kağız-qələm götürüb çay içə-içə bu şerin beş bəndini qaralama şəklində yazdım. Beş yaşlı nəvəmi yanıma çağırıb dedm: bax bu da sənin şerin. Şeri süfrə başında oxudum. Gecə əvələ olaraq 6 bənd də yazıb səhər tezdən aparıb mətbəəyə verdim. Bunun cilalanmasına vaxt qalmadı. Çünki kitab kompyuterdə artıq yığılıb qutarmaq üzrə idi. Oxucular şerin qüsurlarını bağışlasınlar.

"Nəvələrim" şerinin tarixçəsi belədir.

## "DƏRƏLƏYƏZ"

**poeması**

*Səadət Buta Azərbaycan xalqının tanınmış, talantlı, fitri istedada malik şairlərindəndir. Ondakı təb Allah vergisidir. Onun işlətdiyi sözlər ürəkdən və qəlbdən gəlir. Buta həmişə xalqın ruhuna uyğun şerlər yazır. Məhz bu səbəbdəndir ki, mən "Dərdimi" rədifli qoşmamda Zəlimxan, Sücaət, Alqayıt, Bəhmən kimi xalqın sevdiyi şairlərlə yanaşı, Səadət Butaya da müraciət etdim. Mən istədim ki, o da mənim dərdlərimə şərik olsun. Azərbaycanın parçalanan, şaqqalanan, yadlar tapdağı altında qalan torpaqların dərdini qələmə alsın, dünyaya yaysın, gələcək nəslə çatdırsın. Deməliyəm ki, Səadət Buta mənə iki dəfə şerlə cavab vermişdi. Lakin o, bununla kifayətlənməyib bu mövzu ilə bağlı poema yazmaq fikrinə düşdü.*

*O bir gün mən işlədiyim universitetə gəlib mənə dedi ki, Həsən müəllim Sizin "Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz" adlı kitabınızı diqqətlə oxudum. Mən belə bir qənaətə gəldim ki, doğrudan da Dərələyəz Cənnətin bir guşəsidir. Məşhur alman tarixçisi Şopen Dərələyəzi Qafqazın İsveçirəsi adlandırmaqda səhv etməmişdir. Bundan sonra mənim Dərələyəzə olan marağım daha da artdı. Başqa mənbələrdən, bədii kitablardan və oranın əhalisindən Dərələyəz haqqında*





*yeni-yeni məlumatlar öyrəndim. Deməliyəm ki, Sizin atanız haqqında olan məlumatlar məni heyrətə gətirdi. Xalqımızın belə ağsaqqallarını unutmaq günahdır. Belə bir qərara gəldim ki, Dərələyəzin, Atanızın və Sizin haqqınızda deyilənləri, yazılanları, gördüklərimi, eşitdiklərimi, bildiklərimi, öyrəndiklərimi birlikdə qələmə alım. Mən Butanın bu fikrindən çox razı qalıb ona öz təşəkkürümü bildirib dedim:*

*Buta xanım! Çox sağ olun ki, Siz Dərələyəzi, uzun illər onun ağsaqqalı olmuş atam İbrahimdən, atamı da məndən ayırmırsınız...*

*Bir aydan sonra Səadət Buta mənim iş yerimə gəldi və bu poemanı mənə təqdim etdi. Mən bütün dərəyəzlilər adından Səadət Butaya bir daha öz təşəkkürümü bildirirəm. Dərələyəz poeması da belə yarandı.*

## «GÜL VERDİ SƏNƏ»

**müxəmməsi**

*1959-cu ildə Aspiranturaya təzə daxil olmuşdum. Mənə möhkəm soyuq dəymişdi. 8 noyabr bayramı idi. Azərbaycan Dövlət Pedaqoji Universitetinin xəstəxanasında idim. Xəstəxanada mənimlə bir palatada yatan tələbə Ağababa xəstəxanadan çıxıb qohumlarının evinə getmişdi. Günorta vaxtı bir gözəl qız qucağında qızılgül dəstəsi ilə içəri girdi. Palata yoldaşımı soruşdu. Onun olmadığını görüb pərt oldu. Elə bu zaman Ağababa gəlib çıxdı. Ağababa bu qıza bir şer yazdı və mənə sataşdı ki, sən dilçisən belə sürətlə şer yaza bilməzsən. O öz fikrini bir qədər pafosla dedi və mən az da olsa pərt oldum. Qələmi əlimə alıb bu şeri yazıb elə oradaca V kurs tələbəsi Ağababaya təqdim etdim və şerə təkrar baxmağıma vaxt olmadı.*





## «AY HƏSƏN QAĞA»

**qoşması**

*Şe'rin əmələ gəlmə tarixi belədir. 2000-ci il martın əvvəlləri idi. Binəqədi rayonunda İcra hakimiyyətində ümumi işlər müdiri Nəbinin Bayılda bir qohumu rəhmətə getmişdi. İcra hakimiyyətinin işçiləri ilə axşam çağı həmin hüzrə getmişdik.*

*Hüzrdə stolun baş tərəfində Salman Qazi deyilən bir adam oturmuşdu. Mən bunu birinci dəfə idi ki, görürdüm. Dini məsələlərdən çox şirin söhbət edirdi. İş elə gətirdi ki, mən də söhbətə qarışmalı oldum. Mən "Valeh və Zərniyar" dastanından dini məsələlərə, şəriətə, Qur'ana, imamlara, oruca, namaza və s. aid 10 bənd qıfılbəndi, həmçinin Qurbaninin, Ələsgərin bu məsələlərlə bağlı qoşmalarından, qıfılbəndlərindən də söz açdım. Bundan sonra mən də öz şe'rlərimdən bəzi məqamları dedim. Məclis xoş bir ovqatla qurtardı. Bir həftədən sonra şair Salman Qazi bu şe'ri «Yurd həsrəti yaman sıxır sinəmi» adlı şe'r kitabının titul səhifəsinə yazıb mənə göndərmişdi. Bu hörmət, diqqət, ehtiram üçün ona öz dərin təşəkkürümü bildirirəm.*

## *"BƏNÖVŞƏ" VƏ "AY HƏSƏN"*

*qoşmaları*

*«Bənövşə» şerinin yaranma tarixi belə olmuşdur.*

*1938-ci il aprel ayının axırıncı günü bizi, məktəb uşaqlarını kəndin (Dərələyəz mahalının Qovuşuq kəndinin) qabağındakı meşəyə aparmışdılar ki, May bayramında məktəbi bəzəmək üçün gül-çiçək, nərgiz, bənövşə yığıb gətirək. Mən yığdığım nərgiz və bənövşədən evə də gətirdim.*

*Anam Nahad (Nahid) mənə dedi ki, atan bənövşə və nərgizi çox sevir. Bu gün atana məktub yaz və bu nərgiz, bənövşədən də məktubun içinə qoy ona göndər. Sonra da əlavə etdi ki, bacılarının (Nazlı və Züleyxanın) tel tüklərindən də bir az kəs məktubun içinə qoy və yaz ki, qızlar da tel tüklərini sənə göndərib. Mən belə də etdim və məktubu poçtla yola saldım. Atam Sibirdə bu məktubu may ayının 27-də almış, sonra da bu «bənövşə» və «Ay Həsən» rədifli şerlərini yazıb mənə göndərmişdi. Bənövşə şerinin bəzi bəndlərini unutmuşam, yalnız yadımda qalanlarını yazdım.*

*Atam Mirzəli oğlunu 1935-ci ildə tutub məhkəmə etmədən 58-ci maddə ilə 5 il iş kəsib xalq düşməni adı ilə Sibirə sürgün etmişdilər. Atam azad olub gələndə danışırdı ki, onu Sibirdə rahat buraxmır, onun yerini tez-tez dəyişirmişlər. Səbəbi bu imiş ki, atama cəza çəkdiyi*





*yerlərdə hamı, xüsusən müsəlman olan dustaqlar çox hörmət edirlərmiş. Atam islam dinini, Şərq xalqlarının tarixini, folklorunu, klassik ədəbiyyatını, hikmətlərini yaxşı bildiyi, çox şirin söhbət etdiyi, siyasət aləmindən yaxşı baş çıxartdığı üçün dustaqlar ona xüsusi qayğı göstərirmiş. Hətta çox zaman onun payına düşən fiziki işləri həmin dustaqlar görüb onu işləməyə qoymazlarmış, kalonda dustaqların böyük bir qismi onun sözlərini əsas götürərmiş. Bu səbəbdən onun yerini tez-tez dəyişər və ona gələn məktubları da gizlədərmişlər. Bu məktubu yazdığı zaman ona 9 ay imiş ki, məktub vermirlərmiş. Günləri çox pərişan və qəmgin keçdiyi üçün məktubunda qəmli olduğuna da işarə edir.*

## MÜNDƏRİCAT

ÖN SÖZ ... 3
REDAKTORDAN ... 5
QOŞMA, GƏRAYLI, MÜXƏMMƏS VƏ DEYİŞMƏLƏR ... 22
*Dərələyəz* ... 23
*Dərdimi* ... 24
*Dağlar* ... 26
*Dərələyəzdə (deyişmə)* ... 28
*"Qaldı" - "qalmaz" (deyişmə)* ... 39
*Təbriz* ... 43
*Gəlmişəm* ... 45
*"Ay Həsən Mirzə" - "Buta" (deyişmə)* ... 46
*Tapın gətirin* ... 49
*Bu gözələ* ... 51
*Beləsinə* ... 52
*Çeyran* ... 54
*Olarmı?!* ... 55
*Nə olar?!* ... 56
*Nəvələrim* ... 57
*Gül verdi sənə* ... 60
DƏRƏLƏYƏZ YADA DÜŞƏN, YAD EDİLƏN VAXTLARDA VƏ DİGƏR MƏQAMLARDA DEYİLMİŞ SƏTİRLƏR ... 61
*Sənsə dönmə, Dərələyəz!* ... 62
*Ürək dözmür, Dərələyəz!* ... 62
*El ağlayır, Dərələyəz!* ... 62
*Bir az da döz, Dərələyəz!* ... 62
*Elinin qaydına qal, Dərələyəz!* ... 63
*Sinəndə çağlasın saz, Dərələyəz!* ... 63
*Həsən Mirzəni də an, Dərələyəz!* ... 63
*Mən səni anırım hey, Dərələyəz!* ... 64
*Həsən səninlədir bil, Dərələyəz!* ... 64





*Qəlbimdən kədəri sil, Dərələyəz!* ... 64
*Didərgin elini gəz, Dərələyəz!* ... 65
*Ana torpağımsan, ay Dərələyəz!* ... 65
*Həsəni bu dərddən qurtar, ay Allah!* ... 65
*Əzablı* ... 66
*Yüzü də yaşa* ... 67
NƏSƏN MİRZƏYƏ VERİLƏN CAVABLAR, EDİLƏN MÜRACİƏTLƏR VƏ ONA HƏSR OLUNAN DİGƏR ŞERLƏR ... 68
*Dərdimi* ... (Zəlimxan Yaqub) ... 69
*Dərdimi* ... (Alqayıt) ... 71
*Dərdimi* ... (Səadət Buta) ... 73
*Ay Həsən* ... (Alqayıt) ... 76
*Ay Həsən Mirzə* ... (Səadət Buta) ... 78
*Yaradıb* ... (Aşıq Mehdi) ... 79
*Yaradıb* ... (Zəki İslam) ... 80
*Həsən Mirzəyev* ... (Alim Dərələyəzli) ... 81
*Vurğunuyam* ... (Alim Dərələyəzli) ... 83
*Həsən müəllim* ... (Firuzə Məmmədli) ... 85
*Ay alim Həsən, ay şair Həsən* ... (Əli Qurban Dastançı) ... 87
*Bağışlayıb* ... (Aşıq Mehdi) ... 89
*Görüm* ... (Aşıq Ulduz) ... 91
*Küsmüşəm* ... (Aşıq Ulduz) ... 93
*Ay Həsən qağa* ... (Əvəz Lələdağ) ... 95
*Ay Həsən Mirzə* ... (Avtandil Ağbaba) ... 97
*Ay Həsən qağa* ... (Salman Qazi) ... 99
*Ay Həsən məllim* ... (Şəkil Dərələyəzli) ... 101
*Var* ... (Həsənxan Manafov) ... 103
*Həsən müəllim* ... (Mərziyə Kəlbəcərli) ... 104
*Gəlmişəm* ... (Eldar Sadıq) ... 105
*Həsən məllim* ... (Əli Əkbər Dərələyəzli) ... 106
*Vətənim* ... (Rəhman Mustafayev) ... 109
*Ay Həsən* ... (Bilman Qüdrət) ... 112

*Olma*....................(Aşıq Mehdi) ....................116
*Gəzəydik qoşa*.........(Aşıq Mehdi) ....................118
*Mən*....................(Mənsurə Dərələyəzli) ....................120
*Ay dədə Həsən*.........(Əli Qəmli) ....................121
*Elin ağsaqqalı, ay həsən məllim!*...(Əli Qəmli) ....................122
*Ay Həsən lələ*.........(Əli Qəmli) ....................124
*Nə köçhaköçdür?*....(Fəridə Ləman) ....................126
**POEMA** ....................128
*Dərələyəz -poema...(Səadət Buta)* ....................129
**ÖVLAD MƏHƏBBƏTİ, YURD HƏSRƏTİ** ....................156
*Ay Həsən*............(İbrahim Mirzəli oğlu) ....................157
*Bənövşə*............. (İbrahim Mirzəli oğlu) ....................159
*Qonaq gəl İlyas* ... (İbrahim Mirzəli oğlu) ....................160
**BƏZİ ŞERLƏRİN YARANMASI HAQQINDA MÜƏLLİFİN QEYDLƏRİ:** ....................162
*Dərələyəz* (deyişməsi) ....................163
*Dərdimi* (qoşması) ....................165
*Dağlar* (gəraylısı) ....................167
*Təbriz* (müxəmməsi) ....................169
*Qaldı-Qalmaz* (deyişməsi) ....................171
*Ay Həsən Mirzə-Buta* (deyişməsi) ....................172
*Gəlmişəm* (müxəmməsi) ....................173
*Beləsinə* (gəraylısı) ....................174
*Tapın gətirin* (qoşması) və *Bu gözələ* (gəraylısı) ....................175
*Çeyran* (müxəmməsi) ....................176
*Olarmı?!* (qoşması) ....................179
*Nə olar?!* (qoşması) ....................180
*Nəvələrim* (şeri) ....................181
*Dərələyəz* (poeması) ....................182
*Gül verdi sənə* (müxəmməsi) ....................184
*Ay Həsən qağa* (qoşması) ....................185
*Bənövşə və Ay Həsən* (qoşmaları) ....................186
**MÜNDƏRİCAT** ....................188



***Həsən İbrahim oğlu Mirzəyev (Həsən Mirzə)***

***Hanı o səndəki el, Dərələyəz ?!***

Redaktor: B.Ə.Xəlilov
Korrektor: M.N.Hüseynova
Tex. redaktor:S.F.İsrafilova
Kom. dzaynı: R.S.Qəniyev

Kitab Azərbaycan Beynəlxalq Universitetinin «Beynəlxalq Universitet» poliqrafiya və nəşriyyat mərkəzində yığılıb və çap edilmişdir.

Yığılmağa verilmişdir: 26.11.2001. Çapa imzalanmışdır: 15.01.2002. Fiziki çap həcmi. 12 ç. v. Kağız formatı.60x84 1/16. Sifariş 34, Tiraj 1000.

Ünvan: Bakı-116, 7-ci mikrorayon, Xarici dairəvi küçə 179, Azərbaycan Beynəlxalq Universiteti

# HƏSƏN MİRZƏ

*Mirzəyev Həsən İbrahim oğlu (Həsən Mirzə) 1927-ci il noyabrın 26-da Qərbi Azərbaycanda, Dərələyəzin Qovuşuq kəndində anadan olmuşdur.*

*1948-ci ildə orta məktəbi, 1950-ci ildə Naxçıvan Dövlət Müəllimlər İnstitutunu, 1955-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini, 1977-ci ildə Marksizim - Leninizm Universitetini bitirmişdir. Filologiya elmləri doktoru, dilçi - türkoloq, professor, kafedra müdiridir. 150-dən çox elmi əsərin, o cümlədən 7 kitabın (6-sı monoqrafiyadır), 6 tədris proqramının müəllifidir. Xeyli publisist məqalələri vardır. 30 monoqrafiya, dərs vəsaiti, metodik göstəriş və tədris proqramının elmi redaktoru, 2 bədii əsərin redaktoru, 5 dərslik və dərs vəsaitinin rəyçisi, 14 elmlər namizədi və elmlər doktorunun opponenti olmuş, xeyli elmi kadrlar (elmlər doktoru və elmlər namizədi) yetişdirmişdir. Uzun illər Azərbaycan Dövlət Pedaqoji Universitetində, Azərbaycan EA-nın Dilçilik İnstitutunda, Bakı Dövlət Universitetində dilçilik üzrə ixtisaslaşdırılmış müdafiə şurasının üzvü olmuşdur. 50 ildən artıq əmək fəaliyyəti dövründə bir çox vəzifələrdə çalışmışdır.*

*Respublika ali məktəb əlaçısı, Əmək veteranı, YAP Siyasi Şura-sının, Respublika Ağsaqqallar Şurası idarə heyətinin üzvüdür. 1959-cu ildə kənd sovetinə, 1990-cı ildə Bakı Şəhər Sovetinə, 1998-ci ildə Birinci çağırış, 2000-ci ildə İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. O, İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk sessiyasının sədri olmuş və Milli Məclisə sədr olmaq üçün namizədliyi irəli sürülmüş şəxsin (Murtuz Ələsgərovun) sədr seçildiyini imzalamışdır. Ailəlidir, 4 övladı var.*

75

